Qüvvət elmdədir...
Nizami Gəncəvi

# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 20 (1502) ❖ Cümə, 12 iyun 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



# Azərbaycan dövlətçiliyində dönüş yaradan tarix

**15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın müasir dövlətçilik tarixində təkcə siyasi hadisə kimi deyil, Azərbaycan dövlətinin müstəqilliyini qoruyub saxlaması, parçalanmaq təhlükəsindən xilas olması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından taleyüklü mərhələ kimi qiymətləndirilir. Məhz 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı dərin böhrandan çıxararaq sabitlik, inkişaf və dövlət quruculuğu mərhələsinə gətirib çıxardı.**

Tarixi xronologiyaya nəzər salsaq görərik ki, 1987-ci ilin oktyabrında Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyindəki yüksək vəzifələrdən istefa verməsindən qısa müddət sonra erməni millətçiləri və onları dəstəkləyən dairələr Dağlıq Qarabağ məsələsini gündəmə gətirdilər. Bununla da Azərbaycanın sonrakı illərdə qarşılaşdığı faciələrin, ərazi iddialarının və separatçılıq meyillərinin əsası qoyuldu.

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan son dərəcə mürəkkəb daxili və xarici siyasi şəraitdə fəaliyyət göstərirdi. Müstəqilliyin ilk illərində ölkədə idarəetmə böhranı, siyasi qeyri-sabitlik, iqtisadi tənəzzül, qanunsuz silahlı dəstələrin fəaliyyəti və Ermənistanın hərbi təcavüzü dövlətçiliyi ciddi təhlükə ilə üz-üzə qoymuşdu. Belə bir şəraitdə Azərbaycan cəmiyyətində ölkəni bu böhrandan çıxara biləcək siyasi liderə ehtiyac yaranmışdı. Xalqın böyük əksəriyyəti öz ümidini Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyevə bağlayır, onun zəngin dövlət idarəçilik təcrübəsi, siyasi nüfuzu və milli maraqlara əsaslanan mövqeyi Azərbaycanın xilası üçün yeganə real çıxış yolu kimi qəbul edilir.

1993-cü il iyunun 9-da Ümummilli Lider Heydər Əliyev xalqın və dövlət rəhbərliyinin təkidli çağırışlarını qəbul edərək Bakıya gəldi. Bu qayıdış ölkənin taleyində həlledici dönüş nöqtəsinə çevrildi. İyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi isə tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Ulu Öndər Heydər Əliyev xalqın taleyi üçün məsuliyyəti və xilaskarlıq missiyasını çiyinlərinə götürdü.

Onun rəhbərliyi ilə dövlət idarəetmə sistemi yenidən quruldu, hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi, parlament seçkilərinin keçirilməsi və demokratik institutların formalaşdırılması ölkənin gələcək inkişafının hüquqi əsaslarını yaratdı. Eyni zamanda, Ermənistan-Azərbaycan münaqişəsinin hərbi mərhələsinin dayandırılması məqsədilə 1994-cü ildə atəşkəs əldə olundu. Bu addım dövlət quruculuğu və iqtisadi inkişaf üçün zəruri sabitlik mühitinin formalaşmasına imkan verdi.

Milli Qurtuluşdan sonra Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətlərindən biri iqtisadiyyatın bərpası oldu. 1994-cü ildə imzalanmış və "Əsrin müqaviləsi" kimi tarixə düşmüş neft sazişi ölkənin iqtisadi müstəqilliyini gücləndirdi, xarici investisiyaların cəlb olunmasına və Azərbaycanın beynəlxalq enerji xəritəsində mühüm yer tutmasına şərait yaratdı.

Ümummilli Lider Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanındı. Ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndi və Azərbaycanın milli maraqlarına əsaslanan müstəqil xarici siyasət kursu formalaşdırıldı.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası nəticəsində ölkədə güclü dövlət institutları formalaşdı, iqtisadi inkişaf təmin edildi, ordu quruculuğu sahəsində mühüm nailiyyətlər əldə olundu. Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin siyasi kurs müasir dövrün çağırışlarına uyğun şəkildə davam etdirilərək yeni mərhələyə yüksəldildi.

Azərbaycanın iqtisadi, siyasi və hərbi gücünün artması nəticəsində ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər, 2023-cü ildə ölkənin bütün ərazisində suverenliyin tam təmin olunması Ulu Öndərin əsasını qoyduğu dövlətçilik strategiyasının uğurlu nəticəsi kimi qiymətləndirilir. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, bu Zəfər həm də ata vəsiyyətinin yerinə yetirilməsi, Azərbaycan xalqının tarixi ədalətinin bərpası idi.

15 İyun - Milli Qurtuluş Günü Azərbaycan dövlət müstəqilliyinin qorunması, milli birliyin təmin olunması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır.

Azərbaycan dövləti bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlara imza atır, regionun aparıcı güc mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirir. Bu gün təkcə keçmişin deyil, həm də müasir Azərbaycanın və gələcək inkişafının ideoloji-siyasi dayaqlarından biri olaraq tariximizdə əbədi yaşayacaqdır.

# Arxeoloji və antropoloji çöl tədqiqat mövsümünün açılış mərasimi





**AMEA-nın Əsas binasında 2026-cı ildə Arxeologiya və Antropologiya İnstitutunda arxeoloji və antropoloji çöl tədqiqat mövsümünün açılışına həsr olunmuş tədbir keçirilib.**






Əvvəlcə ötən il ərzində arxeoloji tədqiqatlarda tapılmış artefaktların səyyar sərgisinə baxış keçirilib.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq Arxeologiya və Antropologiya İnstitutunda son illərdə aparılan tədqiqatların elmi əhəmiyyətindən və əldə olunan mühüm nəticələrdən bəhs edib. O, institut əməkdaşlarının yaponiyalı tədqiqatçılarla birgə Xocavənd rayonundakı Tağlar mağarasında apardıqları elmi ekspedisiya zamanı arxeoloji qazıntılar nəticəsində təxminən 80 min il əvvəl yaşamış neandertal insana aid yeni paleoantropoloji qalığın aşkar edilməsini Azərbaycan arxeologiyasının dünya antropologiya elminə verdiyi ən sanballı töhfə kimi qiymətləndirib.

Akademik İsa Həbibbəyli, həmçinin Naxçıvanın qədim tarixi ilə bağlı İlandağ yazısının 30 illik axtarışlardan sonra aşkarlanmasını xüsusi qeyd edərək, bu nailiyyətlərin Azərbaycan tarix, humanitar və ictimai elmlərinin yüksək inkişaf səviyyəsinin göstəricisi olduğunu bildirib.

2026-cı ildə ilk dəfə olaraq arxeologiya sahəsində Azərbaycan Respublikasının Dövlət Mükafatının verildiyini söyləyən AMEA prezidenti bu mükafata orta əsr Gəncə və Şəmkir şəhər yerlərində aparılan arxeoloji qazıntılar əsasında əldə etdiyi fundamental elmi nəticələrə görə tanınmış arxeoloq, tarix elmləri doktoru Tarix Dostiyevin layiq görüldüyünü diqqətə çatdırıb.

O, ötən il işğaldan azad edilmiş ərazilərdə beynəlxalq ekspedisiyaların təşkil edildiyini bildirib, Qarabağın Xocalı, Əsgəran və digər bölgələrində aparılan tədqiqatların Azərbaycan tarixinin qədim izlərini üzə çıxardığını qeyd edib. Akademik İsa Həbibbəyli, həmçinin Qarabağda elmi mərkəzin yaradılmasının vacibliyini vurğulayıb.

AMEA rəhbəri Qarabağ və Şərqi Zəngəzurda kompleks elmi tədqiqatların aparılmasının zəruriliyinə də toxunaraq bildirib ki, arxeoloji tapıntıların elmi mahiyyətinin dolğun şəkildə şərh olunması üçün müxtəlif elm sahələrinin nümayəndələrinin birgə əməkdaşlığı daha da genişləndirilməlidir.

Alim son dövrlərdə institutun maddi-texniki bazasının gücləndirilməsi və arxeoloji tədqiqatların genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirib. O, arxeoloji materiallar əsasında qələmə alınan məqalələrin, monoqrafiyaların sayının artırılmasının vacibliyini vurğulayıb.

Arxeoloji tədqiqatlarda beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd edən akademik İsa Həbibbəyli bu əlaqələrin Azərbaycan elminin dünyada təbliği baxımından önəmli olduğunu bildirib.

O, çıxışının sonunda 2026-cı il üzrə arxeoloji və antropoloji çöl tədqiqatlarının nəticələrinin təqdim olunacağı genişmiqyaslı elmi konfransın keçirilməsinin zəruriliyini vurğulayıb, arxeoloqlara fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Arxeologiya və Antropologiya İnstitutunun direktoru, t.ü.f.d., dosent. Fərhad Quliyev "Yeni mövsümün tədqiqat işlərinin əsas hədəfləri" mövzusunda məruzə ilə çıxış edib. O, hazırda Ağdam, Xocalı, Xocavənd, Əskəran və Zəngilan daxil olmaqla Qarabağın müxtəlif bölgələrində arxeoloji tədqiqatların miqyasının əhəmiyyətli dərəcədə genişləndiyini söyləyib. Bildirib ki, institutun tədqiqat proqramına uyğun olaraq işğaldan azad olunmuş ərazilərdə, xüsusilə Zəngilanda, eləcə də Ağstafa və Qəbələdə arxeoloji araşdırmalara başlanılır. Bu tədqiqatlar Azərbaycanın tarix öncəsi və ilk dövlətçilik dövrü, antik və erkən orta əsrlər, Albaniya və Atropatena mədəniyyəti, orta əsr müsəlman şəhərlərinin arxeologiyası, həmçinin antropoloji araşdırmalar kimi mühüm istiqamətləri əhatə edəcək.

Dövlət başçısının süni intellekt və rəqəmsalləşmə ilə bağlı qarşıya qoyduğu strateji vəzifələrdən danışan Fərhad Quliyev qeyd edib ki, gələcəkdə arxeoloji tədqiqatlarda rəqəmsal metodların geniş tətbiqi əsasında yeni yanaşmaların formalaşdırılması, daha yüksək elmi nəticələrin əldə edilməsi üçün müasir texnologiyalardan geniş istifadə imkanlarının yaradılması nəzərdə tutulur.

İnstitutun fəaliyyətinin Azərbaycan dövlətinin elmi və mədəni irsin qorunması sahəsində həyata keçirdiyi siyasətə uyğun şəkildə qurulduğunu bildirən direktor əlavə edib ki, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri ilə yanaşı, həmin ərazilərin tarixi-mədəni irsinin öyrənilməsi də qarşıda duran mühüm vəzifələrdən biridir.

O, institutun maddi-texniki bazasının gücləndirilməsi və elmi fondun təkmilləşdirilməsinin vacibliyinə də toxunub. Bildirib ki, əsas prioritetlərdən biri institut nəzdində fiziki antropoloji laboratoriyanın yaradılmasıdır. Bununla bağlı Türkiyənin Hacettepe və Ankara universitetləri ilə əməkdaşlıq çərçivəsində müəyyən tədbirlər görülür, kadr və təcrübə mübadiləsi aparılır. Laboratoriyanın yaradılması gələcəkdə Azərbaycan Paleontropoloji Fondunun formalaşdırılması üçün mühüm baza olacaq və Azərbaycanın bu istiqamətdə yüksək potensiala malikdir.

Tədbirdə AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov çıxış edərək arxeologiya sahəsində son illərdə müşahidə olunan müsbət tendensiyalara diqqət çəkib. O, əvvəlki illərlə müqayisədə qadın arxeoloqların sayının artmasını təqdirəlayiq hal kimi qiymətləndirib. Bildirib ki, bu amil elmi mühitin daha da zənginləşməsinə xidmət edir.

Professor Kərim Şükürov Azərbaycan tarixinin formalaşmasının bilavasitə arxeoloji tədqiqatlara əsaslandığını söyləyib. Yunan və Roma müəlliflərinin Qafqaz Albaniyası tarixinə dair verdiyi məlumatlarda təhriflərin mövcud olduğunu qeyd edən alim ən qədim dövrlərdən son orta əsrlərə qədər şəhər mədəniyyətinin öyrənilməsinin arxeoloqların iştirakı olmadan mümkün olmadığını bildirib.

Bu sahədə kadr məsələsinə də toxunan professor Kərim Şükürov qeyd edib ki, Tarix və Etnologiya İnstitutunda, xüsusilə Qədim dövr tarixi şöbəsində arxeoloq mütəxəssislərə ciddi ehtiyac var.

O, Azərbaycanın arxeoloji xəritəsinin hazırlanmasının vacibliyini vurğulayaraq, əhalinin məskunlaşması, mədəniyyətin yayılması və tarixi proseslərin elmi şəkildə təhlili üçün bu xəritələrin mühüm əhəmiyyət daşıdığını deyib. Yaxın vaxtlarda bircildlik "Azərbaycan tarixi" kitabının hazırlanaraq çap olunacağını söyləyən direktor bu nəşrin Azərbaycan elminə ciddi töhfə verəcəyinə əminliyini ifadə edib. Sonda professor Kərim Şükürov Arxeologiya və Antropologiya İnstitutu ilə mövcud əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyini bildirib.

Daha sonra institutda çöl-tədqiqatları ilə bağlı aparılan işləri əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirdə, həmçinin institutun Orta və son Tunc dövrü şöbəsinin baş elmi işçisi, professor Hidayət Cəfərovun "Azərbaycan arxeologiyasında keçmiş ənənələr və müasir yanaşmalar", İslam dövrü arxeologiyası şöbəsinin müdiri, professor Qafar Cəbiyevin "Azərbaycan orta əsr şəhərlərinin tədqiqat prespektivləri", Arxeoloji irsin tarixi və nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi, t.e.d., dosent Tarix Dostiyevin "Azərbaycan arxeologiyasında türk-islam irsi" və Neolit və xalkolit dövrü arxeologiyası şöbəsinin elmi işçisi Mircavid Ağalarovun "Gənc kadrların hazırlanmasında elmi seminarların və yay məktəbi layihələrinin əhəmiyyəti" mövzularında məruzələri dinlənilib.

# "Məktəb, elm və ədəbiyyat" layihəsi uşaqlarda mütaliə sevgisini gücləndirir

**Sumqayıt şəhəri Hacı Zeynalabdin qəsəbəsində yerləşən 6 saylı tam orta məktəbdə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Mədəniyyət Nazirliyi və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "Məktəb, elm və ədəbiyyat" layihəsinin növbəti görüşü keçirilib.**



Milli Məclisin deputatı filologiya elmləri doktoru Elnarə Akimovanın ideya müəllifliyi və təşəbbüsü ilə həyata keçirilən tədbirin məqsədi məktəblərdə mütaliənin təşviqi, uşaqların yazıçılar və alimlərlə birbaşa ünsiyyətinin qurulması, şagirdlərə oxu mədəniyyətinin aşılanmasıdır.

Əvvəlcə iştirakçılar məktəblilərin rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar. Daha sonra alimlər və yazarlar məktəb kitabxanasına kitablar hədiyyə ediblər.

Sumqayıt şəhər təhsil sektorunun müdiri İman Ağayev belə görüşlərin uşaqların mütaliyə marağının artırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O qeyd edib ki, kitabın məktəb həyatında yenidən əsas mövqeyə qayıtması üçün müəllimlərin, valideynlərin və ictimaiyyətin birgə səylərinə ehtiyac var.

AMEA prezidenti akademik İsa Həbibbəyli çıxışında uşaqlıq xatirələrinə qayıdaraq ilk dəfə dörd yaşında "Göyərçin" jurnalını oxuduğunu və həmin jurnalın onda mütaliəyə böyük maraq yaratdığını bildirib. İsa Həbibbəyli Azərbaycan maarifçilik tarixinin mühüm mərhələlərindən danışaraq XIX əsrin ikinci yarısını milli düşüncənin formalaşdığı, təhsilin və mədəniyyətin inkişaf etdiyi dövr kimi xarakterizə edib. O, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə və digər maarifçi ziyalıların Azərbaycan cəmiyyətinin inkişafındakı xidmətlərini xüsusi vurğulayıb. Qeyd edib ki, bu şəxsiyyətlərin irsi bu gün də məktəb, elm və ədəbiyyat sahəsində aparılan işlərin ideya əsaslarından biri olaraq qalır.

Layihənin rəhbəri Elnarə Akimova "Məktəb, elm və ədəbiyyat" layihəsinin yaranma məqsədindən və onun əsas ideya xəttindən danışıb. O bildirib ki, layihənin başlıca hədəfi region məktəblərində mütaliə mühitini gücləndirmək, uşaqları yazıçı və alimlərlə birbaşa ünsiyyətə gətirmək və kitabı yenidən gündəlik həyatın vacib bir hissəsinə çevirməkdir. Elnarə Akimova qeyd edib ki, müasir dövrdə informasiya bolluğu içində böyüyən uşaqlar üçün kitab oxuma vərdişinin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Deputat vurğulayıb ki, layihə təkcə bir tədbir silsiləsi deyil, eyni zamanda, davamlı bir maarifçilik hərəkatıdır. Onun sözlərinə görə, məktəb, yazıçı və elmin bir platformada birləşməsi uşaqların dünyagörüşünün formalaşmasına, onların ədəbiyyata marağının artmasına ciddi təsir göstərir.

Milli Məclisin deputatı Mehriban Vəliyeva tədbirdə iştirak edən məktəblilərin fəallığını yüksək qiymətləndirib. O qeyd edib ki, uşaqlarda kitaba olan marağı və sevinc hissini görmək təqdirəlayiqdir.

Mədəniyyət Nazirliyinin Azərbaycan dili və ədəbiyyatı siyasəti şöbəsinin müdiri Vasif Qurbanzadə çıxışında kitabın və mütaliənin təbliğinin dövlətin mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu bildirib. O, nazirliyin bu kimi layihələrə dəstəyinin davam edəcəyini vurğulayaraq, Elnarə Akimovanın təşəbbüsünün əhəmiyyətini xüsusi qeyd edib.

Daha sonra yazarlar Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Sevinc Elsevər, Əziz Sultan, İbrahim İlyaslı və Elvin Əlizadə uşaqlarla səmimi söhbət apararaq oxumağın, yazmağın və mütaliənin insan həyatındakı rolundan danışıblar.

Tədbirin sonunda məktəbin direktoru Qönçə Səftərova çıxış edərək qonaqlara və təşkilatçılara minnətdarlığını bildirib. O qeyd edib ki, belə görüşlər məktəblilərin dünyagörüşünün formalaşmasında, onların elmə və ədəbiyyata marağının artırılmasında mühüm rol oynayır.

# Akademik Vəli Axundovun anadan olmasının 110 illiyinə həsr edilmiş tədbir





**İyunun 8-də AMEA-nın Əsas binasında Azərbaycanın görkəmli alimi və tanınmış ictimai-siyasi xadimi, respublika səhiyyəsinin təşkilatçılarından biri, akademik Vəli Axundovun anadan olmasının 110 illiyinə həsr edilmiş tədbir keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları Fəxri Xiyabanda akademik Vəli Axundovun məzarını ziyarət edib, məzarı önünə gül dəstələri düzüblər.

Sonra AMEA-nın Əsas binasında akademik Vəli Axundovun həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib.

Yubiley tədbirini giriş nitqi ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli görkəmli alim və dövlət xadimi Vəli Axundovun Azərbaycanın ictimai-siyasi və elmi həyatında mühüm izlər qoymuş şəxsiyyətlərdən biri olduğunu bildirib.

AMEA rəhbəri Azərbaycan xalqının yaddaşında dərin hörmətlə yaşayan akademik Vəli Axundovun dövlətçilik fəaliyyətinin Ümummilli Lider Heydər Əliyev tərəfindən hər zaman yüksək qiymətləndirildiyini vurğulayıb. Bildirib, bu yüksək qiymətin ifadəsi olaraq Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə görkəmli alimin 80 illik yubileyi qeyd edilib, Prezident İlham Əliyevin müvafiq Sərəncamı əsasında isə alimin 100 illik yubileyi dövlət səviyyəsində keçirilib.

Sonra Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev akademik Vəli Axundovun həyat və fəaliyyətinə həsr olunmuş geniş məruzə ilə çıxış edib.

Nazir 1996-cı ildə akademik Vəli Axundovun 80 illik yubileyində Ulu Öndər Heydər Əliyevin çıxışını xatırladaraq Ümummilli Liderin onun Azərbaycan xalqı qarşısındakı xidmətlərini yüksək qiymətləndirdiyini vurğulayıb. O, akademik Vəli Axundovun vətən və xalq qarşısındakı xidmətlərinin dövlətimiz tərəfindən daim yüksək qiymətləndirildiyini söyləyib, bugünkü yubiley tədbirinin bu böyük şəxsiyyətə olan dərin hörmət və ehtiramın bariz ifadəsi olduğunu bildirib.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar çıxış edərək akademik Vəli Axundovla bağlı xatirələrini bölüşüb.

Sonra akademik Vəli Axundovun həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Yubiley tədbirində Azərbaycan Tibb Universitetinin kafedra müdiri tibb elmləri doktoru, professor İbadulla Ağayev akademik Vəli Axundovun ictimai-siyasi və elmi-pedaqoji fəaliyyəti haqqında geniş məruzə edib.

Tədbirdə, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini akademik Rafael Hüseynov, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, AR Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Profilaktika İnstitutunun direktoru professor Adil Allahverdiyev çıxış ediblər.

Sonda Axundovlar ailəsi adından akademik Vəli Axundovun qızı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nigar Axundova çıxış edərək, atasının xatirəsinə göstərilən yüksək ehtirama görə təşkilatçılara və tədbir iştirakçılarına minnətdarlığını bildirib.

# AMEA, Türk Dünyası İşadamları Birliyi və "Compnet" MMC arasında Anlaşma Memorandumu imzalanıb

**Azərbaycan Milli Elmlər Akademiyası, Türk Dünyası İşadamları Birliyi və "Compnet" MMC arasında elm, texnologiya və innovasiya sahələrində çoxtərəfli əməkdaşlığın qurulması məqsədilə Anlaşma Memorandumu imzalanıb.**



Bu məqsədlə keçirilən görüşdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli son illərdə Akademiyanın Türk Dünyasının aparıcı elmi qurumları ilə geniş əlaqələr qurduğunu, birgə elmi konfrans və tədqiqat layihələrinin uğurla icra edildiyini vurğulayıb.

Akademik İsa Həbibbəyli müasir dövrdə elmi və texnoloji layihələrin təşviqi sahəsində AMEA-nın daha səmərəli mexanizmlər tətbiq etdiyini və bu istiqamətdə tərəfdaşlığa xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Sonra Türk Dünyası İşadamları Birliyinin sədri Fatih Mehmet Danış çıxış edərək, rəhbərlik etdiyi qurumun rəqəmsal transformasiya proseslərinə verdiyi dəstəkdən bəhs edib. O, AMEA ilə əməkdaşlıq quracaq növbəti türk şirkəti olaraq süni intellekt, rəqəmsal texnologiyalar və innovativ həllər üzrə birgə əməkdaşlığın həyata keçirilməsində maraqlı olduqlarını bildirib.

Görüşün sonunda rəqəmsal elmi əlaqələr, innovasiya, texnologiya və beynəlxalq əməkdaşlıq sahələrində tərəflər arasında qarşılıqlı faydalı tərəfdaşlığın inkişaf etdirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb.

Sənədi AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və Türk Dünyası İşadamları Birliyinin sədri Fatih Mehmet Danış imzalayıblar.

# "İslamın müqəddəs mərkəzi - şəhərsalma və memarlıq" kitabının təqdimatı



**İyunun 9-da Azərbaycanın tanınmış memarlarından biri, Milli Elmlər Akademiyasının (AMEA) Memarlıq və İncəsənət İnstitutunun memarlıq abidələrinin qorunması və bərpası problemləri şöbəsinin elmi işçisi Zərnaz İmanzadənin "İslamın müqəddəs mərkəzi - şəhərsalma və memarlıq" kitabının təqdimat mərasimi keçirilib. "Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin maliyyə dəstəyi ilə işıq üzü görən kitab böyük İslam sivilizasiyasına, onun ənənələrinə, memarlıq və incəsənətinə artan qlobal maraq nəzərə alınaraq yazılıb.**

Tədbirdə çıxış edən "Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Leyla Güləliyeva bu gün təqdim edilən kitabın ölkəmizdə elan olunmuş "Şəhərsalma və Memarlıq İli" çərçivəsində nəşr olunmasının xüsusi əhəmiyyət daşıdığını, mövzusu və elmi dəyəri ilə neşrin memarlıq irsinin öyrənilməsinə və təbliğinə mühüm töhfə verdiyini deyib.

"Azərbaycan Nəşriyyatı" olaraq belə sanballı araşdırmanın işıq üzü görməsinə dəstək verməkdən qürur duyuruq", - deyə L.Güləliyeva bildirib.

Bu mövzuya üz tutmasının səbəblərindən danışan kitabın müəllifi Zərnaz İmanzadə İslam dünyası, İslam sivilizasiyası, İslam mədəniyyəti, memarlığı, incəsənətinin namaz zamanı bütün dünya müsəlmanlarının üz tutduqları Məkkə, Kəbə və Məscidül-Həramdan başlandığını, dünya əhalisinin beşdəbir hissəsinin gündəlik ibadət zamanı üzünü, düşüncələrini və istəklərini həmin məkana doğru çevirdiyini deyib: "Bu yerlər müsəlmanların dini mərkəzi olmaqla bərabər, həm də çox dəyərli, möhtəşəm memarlıq və şəhərsalma abidələridir. Buna görə də bu yerlər haqqında yazmaq çox şərəfli və məsuliyyətli bir işdir. Mən bu yerlərə səfər etmiş insanlardan oranın necə böyük emosional təsir gücünə malik olduğu haqqında dəfələrlə eşitmişdim. Həmin hissi yaşamaq tamamilə başqa bir duyğudur. Bizim oraya ilk səfərimiz zamanı mənim keçirdiyim hissləri ifadə etmək çox çətindir. İlahiyyatçıların şəhərlərin anası adlandırdıqları Məkkə Səudiyyə Ərəbistanının digər şəhərlərindən fərqlənir. Onun çox cazibədar bir əhatəsi var. Ümumiyyətlə, İslam tarixinə dair çoxlu sayda əsərlər olsa da, Məkkə, Kəbə və Məscidül-Həram kimi müqəddəs məkanların şəhərsalma və memarlıq sənəti tədqiqatçıların diqqətindən kənarda qalaraq, ən az öyrənilmiş sahələrdən biri olub. Bu gün təqdimatı olan nəşr Azərbaycanda həmin mövzunu hərtərəfli əhatə edən ilk ciddi elmi-tədqiqat işidir. Lazımi materialların tapılaraq sistemləşdirilməsi çox uzunsürən bir proses oldu. Səudiyyə Ərəbistanı ilə yanaşı, olduğum digər ölkələrdə də daima materialların axtarışına başladım. Müxtəlifdilli ədəbiyyatlarla işləmək lazım gəldi. Kitab üç ayrı hissədən ibarətdir: "Müqəddəs Məkkə", "Müqəddəs Kəbə", "Məscidül-Həram". Qeyd etməliyəm ki, araşdırılan mövzu çoxşaxəli olduğundan bütün istiqamətlərin bir nəşr çərçivəsində tam əhatə olunduğunu iddia etmək olmaz. Ümidvaram ki, məndən sonra bu mövzunu kimsə davam etdirəcək".

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli kitabın bir neçə cəhətdən böyük əhəmiyyətə malik olduğunu deyib: "İndiyə qədər hər bir müsəlmanın maraq dairəsində olan, arzusunda olduğu müqəddəs Məkkə haqqında daha çox tanıtma kitabları, təşviqedici materiallar oxumuşuq. Lakin ilk dəfə olaraq bir azərbaycanlı müəllif İslamın müqəddəs mərkəzi olan Kəbə haqqında sistemli, əyani materiallarla müşayiət olunan monoqrafik tədqiqat ortaya qoyub. Mən bu əsərin janrını albom-monoqrafiya kimi dəyərləndirmək istəyirəm. Kitabın albom və monoqrafiya hissəsi, şəkillər və mətnlər bir-birlərini üzvi surətdə, əyani şəkildə tamamlayır. Kitabın mətn hissəsi, yəni monoqrafiya hesab etdiyim hissəsi İslamın ən qədim və müqəddəs mərkəzlərindən biri olan Məkkə haqqında çox əyani, canlı bir təsəvvür yarada bilir. Müəllif Məkkənin həm memarlıq, müxtəlif mərhələlərdəki inkişaf tarixini yazıb, həm də təkcə tarixi göstərməklə kifayətlənməyib, İslam sivilizasiyasının nümunəsi olan Məkkə memarlığının sənətkarlıq xüsusiyyətlərini şərh edib. Memarlıq tarixini izah edərkən müəllif memarlıq tarixi üzrə mütəxəssis, İslam sivilizasiyasının özünəməxsus xüsusiyyətlərini cəmləşdirən Məkkə sənətkarlığı haqqında danışanda isə sözün əsl mənasında, bir sənətşünas kimi diqqət çəkir. Hesab edirəm ki, bu kitab Zərnaz İmanzadənin memarlıq tarixi ilə memarlıq nəzəriyyəsi və memarlıq sənətkarlığı haqqında biliklərinin, öyrəndiklərinin vəhdətini ortaya qoyur.

Eyni zamanda, kitabda müəllifin özünün çəkdiyi və yaxud da özünün iştirakı ilə çəkilən fotolar yer alıb. Bu da müəllifin həm də fotoqrafiya baxımından incə bir zövqə malik olduğunu, özünəməxsus baxışları olduğunu göstərir. Bütövlükdə kitab Azərbaycanda İslam sivilizasiyasına həsr olunmuş qiymətli əsərlərdən biridir. Bu kitab müqəddəs Kəbə və Məkkə haqqında canlı, əyani təsəvvür yaradan və sivilizasiyanın bütün inkişaf mərhələlərini özündə əks etdirən tədqiqat əsəri kimi də maraqlıdır. Hesab edirəm ki, kitab Kəbəyə, Məkkəyə fotoların gözü və mətnlərin iştirakı ilə qiyabi səyahət üçün də tam bələdçilik etmək imkanlarına malikdir".

Daha sonra çıxış edən tarix elmləri doktoru, professor, ictimai-siyasi xadim Dilarə Seyidzadə, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova, Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü professor Ərtegin Salamzadə, Bakı Dövlət Universitetinin fəlsəfə kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor Rəbiyyət Aslanova çıxış edərək, kitabın məzmun və faktoloji məlumatları özündə cəmləşdirməsi baxımından çox dəyərli bir əsər olduğunu bildiriblər.

Qeyd olunub ki, kitab gələcəkdə İslam memarlığı, İslam şəhərsalması mövzusu ilə məşğul olacaq gənc alimlər üçün kifayət qədər əhatəli bir mənbədir.

# Nəzəri dərinlik və ədəbi-tarixi

**Son illərdə görkəmli elm xadimi, akademik Məmməd Cəfər Cəfərovun elmi-ədəbi irsinin tədqiqi üzrə tədqiqat apararkən iki müxtəlif fikrin qarşısında yenidən düşünüb-daşınmalı oldum. Müşahidə etdim ki, Azərbaycan ədəbiyyatşünaslıq elmində bir çox hallarda ədəbiyyat tarixçiliyi istiqamətində yazılmış tədqiqatlar da nəzəri təhlil və yanaşma yetərincə olmadığı üçün təqdim olunan faktoloji material xronoloji icmaldan uzağa gedə bilmir. Eyni zamanda ədəbiyyat tarixinə həsr edilmiş araşdırmalar həm də əsasən XX əsrin ikinci yarısında Qulam Məmmədli kimi fədakar salnamələrin arxivlərdən və kitabxanalardan min bir zəhmətlə üzə çıxardıqları faktların, məlumatların və sənədlərin çevrəsində dövr etməkdə davam edir. Son iyirmi-otuz ildə ədəbiyyatşünaslıq tədqiqatları sferasına daxil edilən arxiv materialları heç də arzuedilən səviyyədə deyildir. Ədəbiyyat nəzəriyyəsi tədqiqatlarında da ədəbiyyat tarixinə və ədəbi mətnlərə istinad azlıq təşkil etdiyi məqamlarda nəzəri müddəalar hazır sxemlər təsiri bağışlayır, sanki havadan asılı qalır. Problemi akademik Məmməd Cəfər Cəfərovun elmi-ədəbi irsi ətrafında apardığı araşdırmalar müstəvisində aydınlıq gətirmək əyanilik yarada bilər.**



**İsa HƏBİBBƏYLİ,**
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik*

Görkəmli elm xadimi, akademik Məmməd Cəfər Cəfərov XX əsrdə ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid elmi məktəbinin yaradıcısı kimi Azərbaycanın elm tarixinə daxil olmuşdur. Onun zəngin və çoxcəhətli elmi irsi dövr və zaman sədlərini aşaraq yaşamaq haqqı qazanmışdır. Akademik Məmməd Cəfər Cəfərov sovet hakimiyyəti illərində yaşayıb elmi fəaliyyətlə məşğul olsa da, əsərləri hakim ideologiyanın prinsiplərinə çox az "bulaşan" alimlərdən biri olmuşdur. O, mümkün olduqca daha çox yazıçı və şairlərin gerçək portret-oçerklərini yaratmağa səy göstərmişdir. Alimin "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası ölkəmizdə ədəbi cərəyan hadisəsinə həsr edilmiş ilk və çox nadir elmi əsərdir. "Hüseyn Cavid" monoqrafiyası yeni tipli ədəbiyyat tarixçiliyi nümunəsidir. "Füzuli sevir" silsiləsi ilə Azərbaycan Füzulişünaslığında fərqli elmi model yaradılmışdır. "Mirzə Fətəli Axundovun ədəbi-tənqidi görüşləri" də bu istiqamətdə müdafiə olunmuş ilk dissertasiyalardan biri kimi digər yazıçılarımızın da görüşlərinin araşdırılıb öyrənilməsinə yol açmışdır. "Nizaminin fikir dünyası" da eynilə Mirzə Fətəli Axundzadənin, Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəylinin, Səməd Vurğunun da fikir dünyasından yazmağın mükəmməl modelidir.

Akademik Məmməd Cəfər Cəfərovun sağlığında əsərlərinin böyük əksəriyyəti kitablarına daxil edilərək nəşr olunmuşdur. Lakin son illərin axtarışları göstərdi ki, alimin zəngin elmi irsindən onlarla məqalə kitablarında yer almamışdır. Onlardan "Ədəbiyyatımız xalqımızın xidmətində", "Səməd Vurğun yaradıcılığında xəlqilik" (1940), "Bir daha satiramız haqqında" (1942), "Bədii ümumiləşdirmə və romantika" (1945), "Azərbaycan mədəniyyətinin fəxri", "Nekrasov və müasirləri", "Tənqid və moizə" (1946), "Lermontovun şeirləri" (1948), "Azərbaycan sovet dramaturgiyasının bəzi məsələləri haqqında", "Ədəbiyyatın xəlqiliyi və ədəbi irs haqqında" (1949), "İlk Azərbaycan sovet dramları", "Saçlı" və həyatımız" (1949), "Maksim Qorkinin Bakıya üçüncü səfəri" (1950), "Belinski Qorolun sənətkarlıq xüsusiyyətləri haqqında", "Qoqol yaradıcılığının müasir əhəmiyyəti, "Tipiklik realist incəsənətdə partiyalılığın təzahür etdiyi sahədir" (1952), "Yüksək keyfiyyətli dramaturgiya uğrunda" (1953, "1930-1934-ci illərdə Azərbaycan sovet nəşrinin inkişafı" (1954), "Azərbaycan şeirində sənətkarlıq, ənənə və novatorluq haqqında" (1955), "Sovet Azərbaycanının xalq şairi" (1956), "Ədəbi tənqidin bəzi məsələləri" (1957), "XVIII əsrin ikinci yarısında nəsr" (1958), "Azərbaycan nəsri 1961-ci ildə" (1961), "Ədəbi qeydlər" (seriya məqalələr), "Qoca dahi bizimlədir" (1962), "Hər şeydən əvvəl konkretlik" (1965), "Tənqidşünas özünün yaradıcılıq planları haqqında" (1968), "Ustad tənqidçinin əsərləri" (1970), "Söz ustalarının böyük vəzifələri" (1971), "Tənqid və ədəbiyyatşünaslıqda şeir vəznləri haqqında" (1972), "Nəsimi şeirində qafiyə zənginliyi" (1973), "Müasirlik problemi və nəşrin axtarışları" (1977), "İşıqlı düşüncələr şairi" (1979), "Tənqid və ədəbi proses: sənətkar və zaman" (1981), "Dissertasiya yazanlara Molla Nəsrəddinin nəsihəti", "Var olsun məhəbbət" (1982), "Qardaşlıq duyğuları", "Şairin səsi-xalqın səsi" (1984), "Bəstəkarın arzuları", "Sevimli Üzeyirimiz" (1985), "Yeni üfüqlər: yenidənqurma və ədəbi tənqid" (1987), "Yeni il arzuların" (1988), "Barlı-bəhrəli ömür" (1991), "Tarixin dərsləri" (1992) və s.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda və Mərkəzi Elmi kitabxanasında akademik Məmməd Cəfər Cəfərovun kitablarını daxil edilməmiş məqalələrindən ibarət bir cildlik əsərləri çapa hazırlanır.

Çox az adam bilir ki, Məmməd Cəfər Cəfərov publisistika ilə də məşğul olmuşdur. Halbuki o, müxtəlif mətbuat orqanlarında fəal iştirak etməklə bərabər, "Ədəbiyyat qəzeti"ndə şöbə müdiri və baş redaktor vəzifələrində çalışmışdır. Mətbuatla bu qədər yaxın olan yaradıcı şəxsin publisistikadan kənarda qalması mümkün deyildir. Məlumat üçün deyək ki, akademik Məmməd Cəfər Cəfərovun bizə məlum olan iyirmiyə yaxın publisistik məqalələri vardır. Yəqin ki, bu da son hədd deyildir. Axtarışa ehtiyac vardır. Məmməd Cəfər müəllimin publisist məqalələri içərisində Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun sağlığında yazılmış "Vətən qəhrəmanı" adlı mükəmməl bir oçerk vardır. Məmməd Cəfər Böyük Vətən müharibəsi cəbhəsində qəhrəmancasına həlak olan Həzi Aslanovun onun qəhrəman kimi Ana Vətənə "dönüşünü" bu haqda yazdığı "Qəhrəmanın tabutu önündə" adlı rekviyem xarakterli məqalə ilə əbədiləşdirilmişdir. Hər iki publisistika nümunəsini biz üzə çıxardıb, Məmməd Cəfər Cəfərovun ilk dəfə 2022-ci ildə nəşr etdiyimiz 917 səhifədən ibarət "Bədii əsərləri" kitabına daxil etmişik. Lakin Məmməd Cəfər Cəfərovun Böyük Vətən müharibəsi illərində müxtəlif dövrü mətbuat səhifələrində çıxmış alman faşizmi əleyhinə yazılmış çoxsaylı ictimai-siyasi məzmunlu məqalələri və "Ədəbiyyat qəzeti"ndə getmiş digər publisistika nümunələri də vardır. Yeri gəlmişkən, çap olunmuş "Bədii əsərləri" kitabına Məmməd Cəfər Cəfərovun yeni aşkar edilmiş "İnsanlar və talelər" kinodramı, "Get dolanginən, xainsən hələ" tragikomediyası, "Bir mənzum məktuba cavab" poeması da daxil edilmişdir.

Ümumiyyətlə, müşahidələrimiz göstərir ki, xalq yazıçısı Mirzə İbrahimovun, Xalq artisti, akademik Üzeyir Hacıbəylinin, akademik Məmməd Arif Dadaşzadənin, akademik Məmmədağa Şirəliyevin, xalq şairi Bəxtiyar Vahabzadənin, AMEA-nın müxbir üzvləri Abbas Zamanovun, Əbdüləzəl Dəmirçizadənin və onlarla başqa görkəmli yazıçı və şairlərimizin, elm xadimlərimizin də vaxtilə dövrü mətbuatda çıxan, yaxud əlyazması kimi arxivlərdə saxlanan kifayət qədər elmi-publisist məqalələri vardır ki, kitablarına daxil edilmədiyi üçün hazırda elmi dövriyyədə "iştirak" etmir, tədqiqata və təhlilə cəlb edilə bilmir. Azərbaycan Milli Elmlər Akademiyasının humanitaryönlü institutlarında ədəbi-tarixi şəxsiyyətlərə yenidən qayıdış layihələri əsasında görkəmli yazıçıların və elm xadimlərinin arxivləri əsasında onların əsərlərini toplanılıb və tərtib edilib çap edilməsi sahəsində iş aparılır. Üzə çıxarılan yeni məqalələr ədəbiyyat tarixinin müstəqillik işığında yenidən yazılmasında, ayrı-ayrı yazıçıların həyatı və yaradıcılığı haqqında ümumiləşdirilmiş monoqrafik tədqiqatların hazırlanmasında təzə "donor" kimi iştirak edir.

Məlum olduğu kimi, yazıçıların və elm adamlarının məktublaşmaları onların daxili dünyasını, əlaqə və münasibətlərini, sənətə və cəmiyyətə baxışlarını tam müəyyən etmək üçün mötəbər mənbədir. Ölkəmizdə cəmi bir neçə yazıçının və elm adamının məktubları toplanılıb çap edilmişdir. Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Mirzə İbrahimov, Abbas Zamanovdan başqa məktubları toplanılıb çap edilən yazıçı və alimlər barmaq ilə sayılacaq qədər azdır. Moskva Dövlət Universitetində uzun illər kafedra müdiri vəzifəsində işləmiş professor Əziz Şərifin Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində mindən çox yaxın məktubu saxlanılır. Bu məktublar XX əsr Azərbaycan ədəbi-ictimai mühitinin epistolyar salnaməsidir. Xalq yazıçıları Süleyman Rəhimovun, Mir Cəlalın, Əbülhəsənin, Əli Vəliyevin lap son dövr yazıçılarımızın və elm adamlarımızın, məsələn, AMEA-nın müxbir üzvü Yaşar Qarayevin və Xalq yazıçısı Elçinin məktublarının üzə çıxarılıb, toplanılıb nəşr edilməsinə böyük ehtiyac vardır. Bunlarsız nə o sənətkarların və alimlərin həyatı və yaradıcılığını, nə də onların dövrünü və mühitini tam dərk və şərh etmək mümkün deyildir.

Keçən illərdə görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun vaxtilə onunla birlikdə Moskvada Maksim Qorki adına Ali Ədəbiyyat İnstitutunda təhsil almış Azərbaycanın Xalq yazıçısı İmran Qasımova yazıb göndərdiyi təsirli bir məktubunu oxudum. Məsafəcə bir-birindən uzaqda yaşayan bu görkəmli şəxsiyyətlərin daxili dünyasının zənginliyi, qarşılıqlı dərin inamları və etibarı, sona qədər bölüşmək ehtiyacları, hisslərinin məktub dili ilə ifadəsi ilə tanış olandan sonra hər iki böyük sənətkarı sanki yenidən kəşf etmiş oldum. Məktublaşmaların toplanılıb tədqiq olunmasının əhəmiyyətini daha əyani şəkildə göstərmək üçün Çingiz Aytmatovun 22 sentyabr 1965-ci il tarixdə İmran Qasımova yazdığı məktubun tam mətnini oxuculara təqdim edirəm:

*"Əzizim İmran!*

*Sənin xoş məktubun tam vaxtında gəlib çatıb. Yeni ili bayram kimi qeyd etməyi qəbul etmişik amma günümüzdə narahatlıq, ümid və şübhələr vardır. Belə bir gündə sənin dost sözlərini oxudum və yüngülləşdim. Niyəsini izah etmək çətindir. Belə hissləri yəqin quşlar uzun və çətin uçuşa hazırlaşarkən keçirirlər...*

*"Qızıl alma" hekayəmin "Известия" qəzetində gülünc ixtisarlarla korlanması mənə pis təsir etdi. Sən yəqin "Литературная газета"da əsərin korlanması haqqında yazını oxumusan. Təkcə bu deyil. Qorxulu tənhalıq dəqiqələri olur. Həyat nəhəngliyi ilə hərəkətdədir, sənsə çox şeyləri etmək istəyən amma minlərlə qayğıları olan ölümlü insansan. Çox sağ ol, dostum, ürəyindəki mənə qarşı olan istiliyə görə minnətdaram. Əgər dostların içində çox diqqətli və sənə qarşı həssas olanları varsa, deməli, addımlamaq və elə işləmək lazımdır ki, dostların utanmasınlar.*

*İmran, bağışla ki, belə şeylərdən yazıram, amma səndən gizlədəsi heç nəyim yoxdur. Əksinə, çox şadam ki, öz düşüncələrimi səninlə açıq bölüşə bilirəm! Hər adama ürəyini boşaltmaq olmaz*

*Cari ildə fikrim var ki, iki üçlü hekayə yazım. Hər bir üçlük ümumi ideyası və kompozisiyası olan müstəqil və tamamlanmış mərhələ olmalıdır. İlk hekayəsi kiçik povest xarakterindədir və "Ölmüş oğulla görüş" adlanır. Yarısını yazmışam. Tamamlayıb davam edəcəm. Məni "Ana tarla"da olduğu kimi, İnsan və Müharibə mövzusu narahat etməkdədir. Yenə və yenə də mən göstərmək istəyirəm ki, necə qeyri-adi, gözəl insanlar faşizm əleyhinə, sülh yaratmaq üçün müharibədə ölüblər. Mən kəmiyyət olaraq deyil, mənəvi itkiləri nəzərdə tuturam. Bilmirəm, buna nə qədər müyəssər olacam.*

*İmran, sənin işlərin necədir? Ümid edirəm ki, sağlığın yerindədi. Biz hamımız sənə və ailənə can sağlığı və uğurlu fəaliyyət arzu edirik.*

*Sənin hər məktubun bizim ailəmizdə hadisəyə çevrilir. Yaz zəhmət olmasa.*

*İmran, səni bağrıma basıram!*

*Minarə və Səidəyə ən ülvi arzularımı çatdır.*

*Yeni pyesini tamamlamısan? Harda tamaşaya qoyulacaq?*

*Çingiz*
*4.1.64".*

*İmran, əzizim!*

*Çox yaxşı etmisən ki, mənə məktub yazmısan. Buna çox ehtiyacım var idi. Dərhal cavab yazıram.*

*Darıxmışam səninçün, çoxdandı görüşmürük.*

*Hansısa kənddə dincəlirsən və işləyirsən. Bu, çox yaxşıdır. Hər dəfə bakılılarla görüşəndə səni soruşuram. Tanrının köməyi ilə hər zaman özünü yaxşı hiss edəsən.*

*Mənə qaldıqda isə, əvvəlki çatışmazlıqlarla, qorxunc zaman darlığı hiss edirəm. Bizim ziyalılar arasında mədəniyyətin keçmiş meyarlarla təqdimatı, "partiyalı" yaradıcılığa meyllənmə prosesi başlayıb. Qocaların böyük əksəriyyəti "kult" psixologiyasından elə möhkəm yapışıblar ki, onları ayıltmaq, tərbiyə etmək çətindir. Bu da mənim yaradıcılığıma və onlara olan münasibətlərimə təsir edir. Onlar ənənəvi, köhnə meyarları üstün tuturlar və yeni, orijinal olan hər şeydən qorxurlar. "Nəzarət" maniyası onların yenilik hissini boğur. Bütün bunlar mənə təsir edir. Çünki daim inkişaf edən sağlam gənclik ruhumu dəstəkləməliyəm. Çoxlu güc, enerji və əsəb belə işlərə sərf olunur.*

*Başladığım işləri bitirmək haqqında düşünürəm. Əgər hər şey yaxşı olsa üç povestim alınacaq. Ən əsası odur ki, üzərində işləməyə nəsə var.*

*Biz tez-tez Bakını, sizin evi, küçəni xatırlayırıq. Həmin binada və insanlarında italyansayağılıq var. Bu mənim çox xoşuma gəlir.*

*Bax belə, əziz İmran. Mən çox şadam ki, sənin ailən böyüyür, balaca Fərid ümidləndirir. Bizim uşaqlar da o qədər sürətlə böyüyürlər ki, hərdən təəccüb edirəm. Tezliklə məni ötüb keçəcəklər. Onları tərbiyə etmək çətinləşir. Bu yay Əsgərin qolu sındı. Qolunun ön hissəsi tamam qırılmışdı. Bütün yayı gipsdə gəzdi. Təsəvvür edirsən ki, mən Kereslə nə qədər həyəcan və narahatlıq keçirdik. Heç bir yerə getmədik, bütün yayı bağda oturduq. Növbəti işləri gözləyərək yaşayıram.*

*Bizdən hər kəsə, Minarəyə, Səidəyə, Fəridə salam olsun.*

*Səni bağrıma basıram, İmran.*

*Çox sağ ol, xatırladın, ürəyim şad oldu.*

*Çingiz*
*22.IX.65.*

Hazırda AMEA Ədəbiyyat İnstitutunda Qırğızıstan Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun ortaq layihəsi kimi Çingiz Aytmatovun məktublaşması layihəsi üzərində iş aparırıq. Akademiyanın Əlyazmalar İnstitutu, Şərqşünaslıq İnstitutu və Ədəbiyyat İnstitutunda yazıçıların və alimlərin məktublaşması üzrə elmi layihələr həyata keçirilməkdədir. Keçən il A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun alimləri dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin bir sıra tərcümeyi-hal sənədlərini və haqqında dövrü mətbuat materiallarını aşkar edərək onun çoxcəhətli fəaliyyətimə dair qiymətli bir elmi əsər yazıb nəşr etdirmişlər. Eyni zamanda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mühacirət ədəbiyyatı şöbəsinin əməkdaşları Üzeyir Hacıbəyli ilə Fransada mühacirətdə yaşamış Ceyhun Hacıbəyli ilə yazışmalarını üzə çıxararaq ictimaiyyətə təqdim etməklə yalnız qardaşlararası münasibətlərə deyil, geniş mənada onların yaşadıqları dövrün xarakteristikasının müəyyən edilməsinə aydınlıq gətirmişlər. Hesab edirəm ki, görkəmli şəxsiyyətlərin məktublaşmaları toplanılmalı araşdırılıb öyrənilməsinin davam etdirilməsi və genişləndirilməsi yazıçı və şairlərimizin, elm adamlarımızın tərcümeyi-halının və yaradıcılıq dünyasının, əlaqə və münasibətlərinin daha əsaslı şəkildə araşdırılıb öyrənilməsinə böyük kömək olacaqdır.

Bir neçə kəlmə də xatirə əşyaları və fotoşəkillər barəsində danışmaq istəyirəm. Bir xeyli bundan qabaq "Literaturnaya qazeta"da Aleksandr Puşkinin Çar Kəndi liseyində oxuyarkən istifadə etdiyi mürəkkəb qabının tapılması haqqında geniş bir məqalə oxumuşdum. Məqalə müəllifi yeni tapılmış mürəkkəb qabını az qala müqəddəsləşdirərək belə nəticəyə gəlmişdi ki, Puşkin özünün lisey şeirlərini ruçkasını bu mürəkkəb qabına batıraraq yazmışdır. Bu qəbildən olan başqa faktlara da rast gəlmişəm. Mixail Lermontovun ən görkəmli tədqiqatçılarından biri olan İrakli Andronikov şairi Piyatiqorskiyə aparan faytonçunun kim olmasına dair müxtəlif versiyaları araşdırıb ortaq qənaətə gələndən sonra bu işi Lermontovun yaradıcılığında Qafqaz mövzusunun proloqu kimi dəyərləndirmişdir. Yaxud professor Əziz Şərif Cəlil Məmmədquluzadənin Qori Müəllimlər Seminariyasında üç nəfər seminariya tələbəsi ilə çəkdirdiyi şəkildəkilərin adlarının müəyyənləşdirilməsi ilə bir neçə il məşğul olduqdan sonra onlardan birinin Mirzə Əbülqasım Sultanov olduğunu dəqiqləşdirmişdir. Bu, XX əsrin əvvəllərinin daha bir tanınmış simasının əlyazmalarını, məktublarını, tərcümələrini, dövrün tanınmış adamları ilə çəkilmiş fotolarını üzə çıxarmağa, tədqiqata cəlb etməyə şərait yaratmışdır. Nadir fotodakı üçüncü şəxsin Ələkbər Məmmədxanov olduğu tərəfimizdən müəyyənləşdirildikdən sonra daha bir azərbaycanlı yazıçı və ictimai xadim haqqında da gerçəkliklər üzə çıxarıldı. Bu yaxınlarda filologiya elmləri doktoru, professor Vilayət Quliyev Ələkbər Məmmədxanov haqqında iri həcmə malik bir monoqrafiya yazıb çap etdirmişdir. Deməli, yazıçı və şairlərlə bağlı xatirə əşyalarının və fotoların tapılıb mətbuat vasitəsilə ictimaiyyətə təqdim olunması, muzeylərə, arxivlərə və kitabxanalara verilməsi sadəcə adi bir əşyanın və ya şəklin əldə olunması demək olmayıb, yaradıcı şəxsiyyətlərin dövrün, mühitin görünməyən tərəflərinin, naməlum səhifələrinin açılıb araşdırılmasına da meydan açır, ədəbi-mədəni mühitdəki boşluqların doldurulmasına xidmət edir.

Bu cəhətdən Azərbaycanda yaxşı bir ənənə olmuşdur. Filologiya elmləri doktoru, professor Teymur Əhmədov Nəriman Nərimanovun haqqında fotolar və tərcümeyi-hal sənədləri əsasında albom-monoqrafiya hazırlayıb çap etdirdikdən sonra bir sıra yazıçılarımızın da albom-monoqrafiyaları nəşr edilmişdir. Artıq Cəlil Məmmədquluzadə, Səməd Vurğun, Mir Cəlal, Məhəmmədhüseyn Şəhriyar, Rəsul Rza, İlyas Əfəndiyev və başqalarının haqqında albom-monoqrafiya janrında hazırlanmış kitablar elmi dövriyyədədir. Heydər Əliyev Fondunun Azərbaycanın görkəmli yazıçıları və mədəniyyət xadimləri haqqında həm yüksək elmi səviyyədə, həm də əsl poliqrafiya nümunəsi olaraq nəşr etdiyi unikal albom-monoqrafiyaları xüsusi olaraq qeyd etmək lazımdır. Lakin son illərdə bütövlükdə albom-monoqrafiya janrı arxa plana keçir və ya albom-monoqrafiyaları daha çox ədiblərin ailə üzvləri hazırlayıb nəşr etdirirlər. Bu məqamda kitabın albom tərəfi qazansa da, tədqiqatçılıq çəkisi, monoqrafiya istiqaməti istər-istəməz "itirir". Ona görə də yazıçı və şairlər, elm adamları və incəsənət xadimləri haqqında professional elmi səviyyədə, elmi ədəbiyyat icmalları ilə müşayiət olunan albom-monoqrafiyaların yazılıb hazırlanmasına və geniş ictimaiyyətə çatdırılmasına ciddi ehtiyac vardır.

Ümumiyyətlə, son illərin elmi-ədəbi proseslərində elmi əsərlərin fundamentallığına xüsusi diqqət yetirilməsi nəticəsində sanballı çoxcildlik nəşrlər, ensiklopediyalar, monoqrafiyalar meydana çıxmışdır. Yaranmış prosesi həm də arxivlərə, ilk mənbələrə, əlyazmalara, dövrü mətbuat materiallarına, tərcümeyi-hal sənədlərinə, fotolara, məktublara doğru yönləndirməklə elmdə fundamentallığın sanbalını və səviyyəsini daha da yüksəltmək olar və bu, zəruridir. Çünki hələ də ayrı-ayrı yazıçı və şairlərin, elm və mədəniyyət xadimlərinin ömür və sənət yolunu tədqiq edərkən XX əsrin altmış-səksə-

# qaynaqlara qayıdış sorağında

ninci illərində Qulam Məmmədlinin, Məmmədəli Nasirin, Xeyrulla Məmmədovun, Kamran Məmmədovun, Ağarəfi Zeynalovun tapıb üzə çıxardıqları, nəşr etdirdikləri salnamələrə, faktlara və sənədlərə daha çox istinad edilir. Yeni tarixi dövr özünün Məmməd Cəfər Cəfərov, Mikayıl Rəfili, Mir Cəlal, Cəfər Xəndan, Yaşar Qarayev kimi nəzəriyyəçi alimlərini, Məmməd Arif və Kamal Talıbzadə miqyasında tənqidçilərini, Həmid Araslı, Feyzulla Qasımzadə kimi ədəbiyyat tarixçilərini, nəhayət, Qulam Məmmədli, Məmmədəli Nasir fədakarlığı nümunəsində salnaməçilərini də meydana çıxarmalıdır. Bu görkəmli şəxsiyyətlərin yaşadıqları dövrdən fərqli olaraq, indi, Müstəqil dövlətçilik şəraitində arxivlərin fondları açılmış, "məxfidir" qrifi aradan qaldırılmış, nəşriyyat imkanlarımız artmışdır.

Son dövrlərdə ədəbiyyat nəzəriyyəsi üzrə bir sıra tədqiqatların meydana çıxmasının təqdir etməklə bərabər, ümumi meyl kimi nəzəri araşdırmalarda ədəbiyyat tarixi materiallarının, bədii mətnlərə istinadın zəifliyini də qeyd etməliyik. Bu halda ədəbiyyat nəzəriyyəsi əsərləri məlum sxemlər əsasında yazılmış icmallar təəssüratı yaradır. Ədəbiyyat nəzəriyyəsində ədəbiyyat tarixçiliyinin "balansı"nı tapmaq lazımdır. Bu cəhətdən Məmməd Cəfər Cəfərovun "Azərbaycan ədəbiyyatında romantizm", Mir Cəlal Paşayevin "Azərbaycan ədəbi məktəblər" monoqrafiyaları çox səciyyəvi nümunə hesab oluna bilər. Nəzəri dərinlik həm də, ədəbi tarixi fakt və əsaslandırma tələb edir.

Nəticə olaraq demək istəyirik ki, elm və ədəbiyyat korifeylərimizin həyatı və yaradıcılığını azərbaycançılıq işığında, yüksək elmi-nəzəri səviyyədə, həm də ilkin mənbələr, yeni arxiv sənədləri, nadir əlyazmalar əsasında yenidən araşdırıb öyrənmək Zamanın çağırışıdır. Həm Azərbaycan Milli Elmlər Akademiyasında və həm də ali məktəblərimizdə, muzeylərimizdə kifayət qədər peşəkar tədqiqatçı alimlərimiz, potensial gənc ehtiyat qüvvələrimiz vardır. Tədqiqatçıları dünyanın müxtəlif elmi mərkəzlərinə göndərmək imkanlarımız da qaydaya düşməkdədir. Hazırda AMEA-nın gənc əməkdaşları Türkiyədə, İtaliyada, Fransada, Polşada, Misirdə stajirovka keçirlər. Elmi fikrimizi, tədqiqat sferamızı, araşdırma mühitimizi daha da genişləndirmək və zənginləşdirmək üçün çalışmaq və yenə də çalışmaq lazımdır: "Ayinəsi işdir kişinin lafə baxılmaz. Şəxsin görünür rütbəyi-əqli əməlindən".

Cəlil Məmmədquluzadənin dediyi kimi, "Əməl, əməl, əməl! Dəxi, bundan vacib başqa bir əməl yoxdur".

Akademik Məmməd Cəfər Cəfərovun indiyədək kitablarına daxil edilməmiş "Tənqid və moizə" adlı məqaləsini oxucuların diqqətinə təqdim edirəm.

*31 may 2026-cı il*

**Məmməd CƏFƏR**

# Tənqid və moizə

M.F.Axundov özünün tənqid haqqındakı fikirlərində tənqidin insanların əxlaqını tərbiyə etmək işindəki xidmətindən də ətraflı bəhs etmişdir. Bu xüsusda biz istər "Kəmalüddövlə məktubları"nda, istərsə Axundovun məqalələrində və məktublarında müəyyən hökm və mülahizələrə tez-tez rast gəlirik. Tənqidin tərbiyəvi əhəmiyyətindən bəhs edərkən Mirzə Fətəli Axundov hər şeydən əvvəl tənqidlə, tənqidə zidd olan moizə və nəsihətin əsaslı və kəskin fərqlərini göstərməyə çalışır.

Mirzə Fətəli bu məsələnin geniş izahına buradan başlayır ki, moizə və nəsihətin - bu moizə və nəsihət hər nə qədər mehriban bir dil və təmiz bir ürəklə söylənilmiş olsa belə - insanların tərbiyə və əxlaqına zərrə qədər təsiri yoxdur və olmamışdır. Çünki moizə və nəsihət, elmi və əqli dəlillərə istinad etmədikdə, insan ağlına təsir etmək qabiliyyətindən acizdir. İnsanın bütün fəaliyyətini isə onun ağlı, şüuru müəyyən edir. Sağlam fikirli, faydalı, qabiliyyətli və istedadlı adamı hazırlayıb ortalığa çıxaran hər şeydən əvvəl ağıl və düşüncə olur. Kimin ağlında, şüurunda nə varsa, onun həyatdakı və ictimai münasibətdəki fəaliyyəti, hərəkəti də ona uyğun olur. Yaxşı düşüncəyə sahib olan adam yaxşı, pis düşüncəyə malik olan adam isə pis hərəkət və fəaliyyət göstərir. Bunun nəticəsidir ki, düşüncəsi və idrak qabiliyyəti naqis olan insanlarda pis əməllər, mənfi xasiyyətlər və cinayətlər daha çox baş verir.

Tənqid isə möhkəm elmi və əqli dəlillərə əsaslanır və insanların ağlına müraciət edir, insanların şüuruna təsir edir. Nəsihət və moizə M.F.Axundovun fikrincə dini tərbiyə vasitəsi, xalqı həmişə cəhalətdə və avamlıqda saxlamaq istəyən ruhanilərin tərbiyə üsuludur. Onların məqsədi xalqa batil etiqadları aşılamaq, öz mənfəətləri üçün xalqın gözünü qapamaqdır; tənqid isə filosofların, xalq səadətini, xalq rifahını ürəkdən arzu edən, qəlblərində yalnız xalq, millət məhəbbətini gəzdirən yüksək idrak sahibləri mütəfəkkirlərin tərbiyə üsuludur.

M.F.Axundov tənqidi fikrin çiçəklənməsinin Avropaya nə qədər faydalar verdiyindən bəhs edərək yazır:

"Keçmişdə Avropada da zalıma zülmü etmək üçün nəsihət etməyin lazım olduğunu düşünürdülər. Sonra nəsihətin zalımın təbiətinə qətiyyən təsiri olmadığını gördülər. Buna görə də millət özü dinin maneəsizliyi sayəsində elmlərdə tərəqqi edərək birliyin faydalarını anladı və bir-birilərinə yekdil, yekcəhət olub zalıma müraciət edib dedilər ki, səltənət və hökumət büsatından əl çək".

Nəticə aydındır. Tənqid siyasi azadlığın böyük və qüdrətli silahıdır. Moizə və nəsihət isə böyük mütəfəkkirin nəzərində siyasi kütlüyə və siyasi tənbəlliyə səbəb olan bir tərbiyə üsuludur. Tənqid edən, xalqın səadətini nəzərə alaraq tənqid edir, nəsihət və moizə edənlər isə öz mənfəətlərini güdərək xalqın başını yastıqlamağa çalışırlar. Bu məntiqə əsaslanaraq Mirzə Fətəli bu nəticəyə gəlir ki, tənqidçiyə ədavət bəsləmək ancaq nadanlıq əlaməti sayıla bilər. Əksinə, namuslu, vicdanlı tənqidçilərdən razı qalmaq, ağıllı adam olmağın ilk əlamətidir.

Tənqidçi öz müasirlərini bir tərəfdən də onların pis adətlərindən uzaqlaşdırmağa çalışır. Moizə və nəsihət edənlər isə, əksinə, keçmişi geri qaytarmağa və ya köhnəliyi mühafizə etməyə çalışırlar. Tənqid həqiqəti göstərir, yaxşını, pisi ayırd edir; nəsihət və moizə isə həqiqəti ört-basdır edir və haqq sözü danışanın ağlını tıxamağa, onu boğmağa çalışır, daim həyatın müsbət həqiqətini hədələməyə can atır. Nəsihət və moizə qəlbi itaətə, müti təbiətliliyə öyrədir, tənqid isə mübarizəyə, üsyana və nəhayət inqilaba, hüquq, azadlıq, istiqlaliyyət uğrunda mübarizəyə çağırır. Axundov tənqiddən xoşlanmayan və narazı qalan tehranlı Mirzə Məhəmməd Cəfərə tənqidin nəsihət və moizəyə görə böyük üstünlüklərindən danışaraq yazır ki: "...İslam əsərlərində kritika bu günə qədər işlənilməmişdir. Buna görədir ki, siz belə şeylərdən qorxursunuz".

Tənqiddən ancaq öz eyiblərini gizlətmək istəyən adamlar, yalançılar, saxtakarlar, hiyləgərlər qorxarlar.

Nəsihət və moizənin, başqa sözlə dini tərbiyə üsullarının tarix boyu bəşər həyatına heç bir müsbət təsir etmədiyindən bəhs edərək M.F.Axundov İranın maarif nəzarətinə göndərdiyi və ümumiyyətlə Axundovun tənqidi əsərləri sırasında mühüm bir yer tutan "Məruzənamə"sində eyni fikirləri inkişaf etdirərək yazır:

"Avropada filosofların zühuruna kimi Roma papaları xalqı elm və maarif təhsilindən mən edirdilər. Amma keşişlərin və vaizlərin vasitəsilə adamları həmişə yaxşı işlərə, gözəl adətlərə və xasiyyətlərə çağırmalarının əsla faydası yox idi. Hər yerdə pis işlər və fəsadlar get-gedə artırdı. Həmin ölkələrdə çap işi ixtira edildikdə xalq, filosofların yol göstərməsi ilə papaların itaət zəncirini boyunlarından atdılar və elmi-mərifət təhsil etməyə başladılar. Nəticədə tərəqqi etmələrindən əlavə, onlarda şər və fəsad yerli-dibli qaldırılmış kimi azaldı... Biz islam tayfası hicrətdən bu günə qədər həmişə minbər, məscid, yığıncaq və məclislərdə alimlər vasitəsilə cahilləri yaxşı işə və gözəl xasiyyətlərə çağırırıq və bu xüsusda onlara vəz və nəsihət edirik. Bizim vəz və nəsihətlərimiz sizlərin xasiyyətlərinə təsir edibdirmi? Bəs bu müddətdə zəhmətimizin nəticəsi nə olub? Oğrular, yol kəsənlər, qatillər həmişə cahillər tayfasından olubdur və vardır və moizə və nəsihət vasitəsilə onların əxlaqını düzəltməyə sərf olunan zəhmətimiz faydasız olubdur. Demək, əxlaqı düzəltmək və pis işləri tərk etmək üçün cəhənnəm qorxusu nə behişt vədi ilə nəsihət və moizənin kifayət edici səbəbi olmadığı sabitdir. Cahillərin hamısı cəhənnəm və behişt haqqında eşidiblər və onlara da etiqadları var və bu etiqadları ilə bərabər yenə pis işlərdən çəkinmirlər. Pis işləri və cinayətləri tərk etməyə kifayət edən səbəb elmdir".

Lakin tənqidin nəsihət və moizəyə görə üstünlüyü bununla qurtarmır. Tənqidin gözəl cəhətlərindən biri də budur ki, "tənqiddə anlaq, istehza və məzxərə kimi yazılır". Belə bir tənqidə isə insan təbiəti hərisdir. İnsanlar bu ruhda olan yazıları suya susamış adam kimi oxuyurlar, ondan öyüd və anlaq hasil edirlər. "Bu bir gizli sirrdir ki", - deyə Axundov davam edir, - "Avropa filosofları bunu anlayıblar, amma mənim millətim hələ bu sirrdən qafildir. İnşallah əgər Kəmalüddövlə məktubları nəşr olunsa, mənim millətim də tərbiyə və mərifət dairəsinə qədəm qoyacaqdır. Mənim millətimin təbii qabiliyyəti Avropa millətlərinin təbii qabiliyyətlərindən neçə mərtəbə yüksəkdir". Lakin nə edəsən ki: "İnsan beyninin tərəqqisi ağıl ilədir. Bu zavallıların isə ağlının hərəkət yolu bağlanmışdır". Demək, ağlı, xalq şüurunu, milli şüuru və dünyəvi şüuru hərəkətə gətirmək üçün ən gözəl çarələrdən biri tənqidi fikrin inkişafına çalışmaqdır.

Nə üçün insan təbiəti tənqidə, tənqidi fikrə hərisdir, nəsihət və moizədən isə insanın həmişə zəhləsi gedir? Yuxarıda görüldüyü kimi, M.F.Axundov tehranlı dostuna yazdığı məktubda tənqidin bu xüsusiyyətini "gizli bir sirr" adlandırır. Lakin biz Mirzə Fətəlinin başqa əsərlərini diqqətlə nəzərdən keçirdikdə bu gizli sirrin ətraflı izah edildiyinin şahidi oluruq.



"Kəmalüddövlə məktubları"nda M.F.Axundov insanlarda yeni əxlaq və yeni dünyagörüşü yaratmağın çarələrini, insanları köhnə, zərərli əqidə və adətlərin zəncirindən xilas edib yeni ruhda tərbiyə etməyin çarələrini izah edərkən böyük məqsədlər tələb edən belə bir tərbiyənin vasitələrini iki əsasda görür:

1. Təbii istedadların, qabiliyyətlərin, başqa sözlə, təbii hisslərin tərbiyəsi və ya sadəcə hissi tərbiyə.

2. Əqli tərbiyə.

Tərbiyənin bu iki vasitəsi M.F.Axundova görə bir-birindən asılı olmaqla bərabər, həm də biri-birindən qüvvət alır və biri digərini tamamlayır. Yəni əqli tərbiyə ilə hissi tərbiyə arasında həmişə sıx vəhdət, sıx əlaqə olur.

Təbii hisslərin tərbiyə edilməsi işində M.F.Axundov hər şeydən əvvəl incəsənətin (poeziya, musiqi, mahnı, teatr, rəqs, heykəltəraşlıq) və müxtəlif əyləncəli oyunların (şahmat, nərd və s.) xüsusi əhəmiyyətini göstərir, çünki bunlar "zehnə cilə verir və ağlı cövhərləndirir". İnsan təbiəti elədir ki, bu vasitələrlə hisslərin tərbiyə edilməsinə həmişə möhtacdır.

Bu dərin psixoloji bir məsələdir. Bunun sirri də ondadır ki, insanın təbiəti fərəh və hüzn ilə qarışır. Yəni hər bir insanda həm fərəhlənmək, həm də kədərlənmək qabiliyyəti vardır. İnsanın qəlbində, ruhunda fərəh kök saldığı kimi, kədər və hüzn də kök sala bilər. Bunlardan hər hansı birinin insan təbiətində özünə əsas yer tuta bilməsi xarici təsirlərdən, başqa sözlə, hissin nə yolda tərbiyə edilməsindən asılıdır. Hər halda hissləri elə bir yolda tərbiyələndirmək lazımdır ki, insanda olan bu təbii qabiliyyətlər fəaliyyətdən düşməsinlər. Xüsusən insanda şadlıq və fərəhdoğurucu təsirlərə fikir vermək lazımdır. Çünki: "Vəsaili-fərəhu sürurdan kənarə olmaq, həvasi-məəttəl edər (hissləri dondurar) və ağlı paslandırar". Şadlıq və fərəhdoğurucu vasitələrdən uzaqlaşmaq hissləri kütləşdirər, fəaliyyətdən salar və əksinə, fərəh və şadlıqdoğurucu təsirlər həddindən artıq, ifrat dərəcədə olsa, qeyd olunan qabiliyyətlərin xarab olmasına, korlanmasına da səbəb ola bilər.

Əqli tərbiyə vasitələrindən danışdıqda isə M.F.Axundov hər şeydən əvvəl müxtəlif elmlərin əsasını təhsil etməkdən ibarət bilir. Lakin bu elmlər dini elmlər kimi boş cəfəngiyatdan və əfsanələrdən ibarət olmayıb; fizika, kimya, astronomiya, coğrafiya, hesab (riyaziyyat), təbiyyət, tarix, incəsənətə aid elmlər və s. - əlhasil, sözün geniş mənasında təbiət və ictimai elmlərdən ibarət olmalıdır.

Hissi tərbiyə birinci növbədə insanda təbii qabiliyyətlərin və istedadların inkişaf etdirilməsinə kömək etdiyi halda, əqli tərbiyə isə nadanlıq və cəhalətin aradan qaldırılmasına, insanda yüksək idrak qabiliyyətinin yaradılmasına, insanın təbiət və ictimai həyat qanunlarını doğru və düzgün anlaya bilməsinə kömək etməlidir. Hissi tərbiyənin məqsədi hər şeydən əvvəl insanı bir insan kimi tərbiyə etmək, insanda insana məxsus olan təbii qabiliyyətlərin oyanmasına və sağlam inkişafına kömək etmək olmalıdır. Əqli tərbiyənin məqsədi isə həmin bu insanı hisslər, duyğular əsasında qurulan və təbiətdən daha çox tərbiyənin və həyati təcrübələrin məhsulu olan yüksək kamalın inkişaf etdirilməsinə xidmət etmək olmalıdır.

Lakin M.F.Axundov bir həqiqəti xüsusilə qeyd edir, o da budur ki, əqli tərbiyə ancaq hissi tərbiyə əsasında qurulur. Başqa sözlə, əqli tərbiyə insanın təbii qabiliyyətlərinin əsasında yaranır. Ona görə də hissi tərbiyə əvvəlcədən məqsədəuyğun bir tərzdə tamamlanmazsa, onun üzərində əqli tərbiyəni qurmaq, əsaslandırmaq olduqca ciddi çətinliklər törədə bilər. Çünki hisslərin kütləşməsi nəticəsində əqli inkişafın yolları da qapanır, pas atır.

Hissi tərbiyə dedikdə - insan təbiətinə təsir etmək, onu məqsədəuyğun bir yolda oyatmaq, ona məqsədəuyğun bir istiqamət vermək deməkdir. Əqli tərbiyə dedikdə başqa sözlə, təbiət və həyat həqiqətləri haqqında biliklərlə zehni qidalandırmaq, ağla rövnəq vermək deməkdir.

Beləliklə, tənqidin insan əxlaqı, şüurunun tərbiyəsində və anlaq tərbiyəsində böyük faydalarının gizli sirrlərindən biri budur ki, tənqiddə tərbiyəvi anlaq fikirlər, ideyalar, istehza və məsxərə şəklində yazıldığı zaman - bədii əsərlərdə olduğu kimi, insanda təbii qabiliyyətlərdən, "qüvvələrdən" biri olan fərəhlənmək, şadlanmaq hissi oyanır və hərəkətə gəlir. Ciddi, düşündürücü, kəskin, tragik şəklində yazıldığı halda isə - ciddi fəlsəfi və ya bədii-tragik əsərlərdə olduğu kimi, insanda təbii qabiliyyətlərin ikincisi olan kədərlənmək hissini oyadır. Beləliklə də, tənqidi əsərləri oxuduqda və dinlədikdə insan bütün təbii hisslərdə və böyük bir həvəslə onunla maraqlanır. Başqa sözlə, tənqidi oxumaqda bütün hisslər iştirak edir.

İkinci tərəfdən tənqid qəti elmi dəlillərə istinad etmək üçün ağlın qüvvətlənməsinə və həyat haqqında yüksək biliklərlə silahlanmasına kömək edir. Ancaq tənqidin faydaları haqqında gizli sirrlərin tərifi bunlarla bitmir. Tənqidin böyük gizli sirrlərindən biri də budur ki, o, insanı pis əməllərdən, pis adətlərdən uzaqlaşdırır, yaxşı və gözəl əməllərə cəlb edir. Tənqidin bu sirri də, Mirzə Fətəlinin izahına görə, yenə təbii-psixoloji bir hadisədir və bunun izahına ehtiyac vardır. O da budur ki, bəşərdə fitri bir qabiliyyət var ki, haman bu qabiliyyət yaxşı əməllərlə pis əməlləri bir-birindən ayırd etmək, fərqləndirmək üçün insana kömək edir. Daha ətraflı deyilsə, bu fitri qabiliyyətin sirri və mənası ondadır ki, insan həmişə xeyir əməldən, yaxşı işdən ləzzət alır və pis işdən incinir, ruhi əzab duyur. Məsələn, bir yetim uşağın sevildiyini görmək və ya onu sevmək insana ləzzət verir; əksinə, haman yetimin döyüldüyünü görmək insanda ruhi əzab doğurur. Bu fitri qabiliyyət insanı heyvandan ayıran başlıca xüsusiyyətlərdən biridir və məhz bu xüsusiyyət insan eqoizmi ilə heyvan eqoizmini bir-birindən kəskin surətdə fərqləndirir. Bu qabiliyyətə istinad edərək tərbiyə etməklə insanı doğru yola cəlb etmək mümkündür. Tənqid isə bir cəhətdən də insanda olan bu təbii qabiliyyətə istinad edərək insanı tərbiyə edir.

Axundov bu məsələ haqqında fikirlərinə aşağıdakı sözlərlə yekun vurur:

"Pis və çirkin adətləri insanın təbiətindən kritika, istehza və məsxərədən başqa heç bir şey qoparıb çıxara bilməz... Kritika müasirlərin əxlaqını tərbiyə və təhzibdə təsirsiz deyildir və gələcək nəslin əxlaqını tərbiyə və təhzibdə mükəmməl təsiri var və gözəl nəticə də bağışlar".

İnsanları doğru nəslə sövq etmək üçün əlverişli vasitələrdən biri də, Mirzə Fətəliyə görə, insan sevgi-təbiilərinin ən əhəmiyyətlilərindən biri sayılan qorxu (vahimə) sövqi-təbiisidir. Çünki bu hissin köməyi ilə insan öz dost-düşmənini, ona xeyirli və ya zərərli olan hadisələri, iş və hərəkətləri daha aydın müəyyən edə bilir. Lakin insanda olan bu hissi axirət qorxusu, cənnət-cəhənnəm qorxusu ilə deyil, dünya siyasəti qorxusu ilə tərbiyə etmək lazımdır. Lakin Mirzə Fətəli təkrarən qeyd edir ki, bu dünya siyasəti qorxusu elə bir ədalətli siyasət qorxusu olmalıdır ki, onun təsiri ilə hər bir insan, hər bir vətəndaş namuslu, qeyrətli vətənpərvər olmağa çalışsın, ağıllı olmağa can atsın, pis əməllərdən uzaq olmağa səy etsin. "Pəs cəraimin ədəmi-süduruna bais cəhənnəm deyil, bəlkə xövfi siyasəti-dünyəviyyədir və sərzənişi-əmsal və ərqandır və namus və qeyrət və əql və elmdir və həm təbiəti-bəşəriyyətdə vədiə olunan bir qüvvə və bir xasiyyətdir ki, əməli-xeyir ilə əməli-şərrə və əməli-həsən ilə əməli-seyyiyə təşxis vermək üçün və əməli-xeyirdən məhzuz və əməli-şərdən münzəçir olmaq üçün insanı qabil edər".

Tənqid amansız olduğundan və bütün həyati həqiqətləri çılpaqlığı ilə açıb ortalığa qoyduğundan, pis insanları, pis əməlləri cəsarətlə qamçıladığından, o eyni zamanda insanda olan vahimə sövq-təbiisini də tərbiyə edir və bu hissi oyatmaq, hərəkətə gətirmək yolu ilə pis insanları pis əməllərdən çəkindirir və yaxşı insanları pis əməllər sahibi olan insanlara təqlid etməkdən, onların təsiri altına düşməkdən saqındırır, cəmiyyətin, həyatın əmin-amanlığına səbəb olur. Tənqidin həyata son dərəcə faydalı olmasının gizli sirrlərindən biri də həmin bu xüsusiyyətdir. Buna görədir ki:

"Hökumətin əmr və nəhylərini nüfuzlu və nizamlı etmək, milləti tərbiyə və həmməzhəblərin əxlaqını düzəltmək üçün kritikadan daha məharətli bir vasitə yoxdur".

Nəticə: bir tərəfdən təbiətin köməyilə - insanda olan fitri insanlıq qabiliyyətlərini hərəkətə gətirmək və tərbiyə etmək yolu ilə, ikinci tərəfdən isə tərbiyə, elmi tənqid sayəsində zehnə və təbiətə cilə vermək yolu ilə insanları pis əməllərdən, adətlərdən, batil əqidələrin təsirindən uzaqlaşdırıb doğru yola cəlb etmək, onları gözəl, xoşbəxt, ədalətli bir cəmiyyətin fəal qurucularına çevirmək mümkündür.

*AEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat məcmuəsi" jurnalı, 1946, 2, s.48-54*

# Azərbaycanda milli kibertəhlükəsizlik ekosisteminin inkişafı əsas vəzifələrdən biridir

**Azərbaycanda milli kibertəhlükəsizlik ekosisteminin qurulması və inkişaf etdirilməsi dövlət qarşısında duran əsas vəzifələrdən biridir.**



”APA-Economics” xəbər verir ki, bu barədə AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev Bakıda keçirilən ”IV Milli Kibertəhlükəsizlik Forumu”nda çıxışı zamanı bildirib.

Alimin sözlərinə görə, son illərdə Prezident İlham Əliyev tərəfindən ölkədə rəqəmsal dövlət quruculuğu və kibertəhlükəsizlik sahəsində ardıcıl siyasət həyata keçirilib. Bu siyasətin nəticəsi olaraq dövlət xidmətlərinin rəqəmsallaşdırılması sürətlənib, rəqəmsal platformalara maraq və tələbat artıb.

”Rəqəmsal transformasiyanın genişlənməsi ilə paralel olaraq kibertəhlükəsizlik məsələlərinin aktuallığı da artır. Bu səbəbdən ölkədə milli kibertəhlükəsizlik ekosisteminin formalaşdırılması və onun dayanıqlılığının təmin edilməsi prioritet istiqamətlərdən biri hesab olunur. Bu ekosistemin əsas məqsədi rəqəmsal dövlətin təhlükəsizliyini təmin etmək, informasiya resurslarını qorumaq və dövlət qurumlarının kibertəhdidlərə qarşı hazırlığını gücləndirməkdir, - deyə akademik Rasim Əliquliyev qeyd edib.

# 100 illik vəsiyyət: Səmərqənd Türkoloji Qurultayı




**Səmərqənddə Özbəkistan Respublikası Ali Təhsil, Elm və İnnovasiyalar Nazirliyi, Yunus Əmrə İnstitutu, Türk Dil Qurumu, Mərmərə Universiteti və Səmərqənd Dövlət Universitetinin birgə təşkilatçılığı ilə ”100 illik vəsiyyət: Səmərqənd Türkoloji Qurultayı” keçirilib.**

Qurultay 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayda qəbul edilmiş, lakin dövrün siyasi şəraiti səbəbindən reallaşdırılması mümkün olmayan Səmərqənd Türkoloji Qurultayı ideyasının yüz il sonra həyata keçirilməsi məqsədilə təşkil olunub.

Tədbirdə Türk dünyasının müxtəlif ölkələrindən alimlər, tədqiqatçılar, dilçilər və türkologiya sahəsində fəaliyyət göstərən mütəxəssislər iştirak ediblər. Qurultay çərçivəsində türk dillərinin aktual problemləri, ortaq dil və mədəni irsin qorunması, türkoloji tədqiqatların perspektivləri, eləcə də elmi əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Tədbirdə AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli ”1926-cı il I Türkologiya Qurultayı: tarixi zəmində, arxiv sənədlərində və milli mətbuatda” mövzusunda məruzə edib. Professor Nadir Məmmədli çıxışında qurultayın türk xalqlarının elmi-mədəni inteqrasiyasında mühüm rol oynadığını vurğulayıb. Məruzədə tədbirin tarixi əhəmiyyəti, arxiv sənədləri və dövrün milli mətbuat materialları əsasında geniş təhlil olunub. Professor qurultayın Azərbaycan elmi fikir tarixində xüsusi yer tutduğunu və onun irsinin bu gün də aktuallığını qoruduğunu diqqətə çatdırıb. Nadir Məmmədli vurğulayıb ki, türkoloji araşdırmaların inkişafı, türk dillərinin öyrənilməsi və qorunması, ortaq elmi layihələrin həyata keçirilməsi müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Bildirilib ki, Türk dünyasının alimlərinin bir araya gəldiyi belə mötəbər elmi platformalar qarşılıqlı əməkdaşlığın genişlənməsinə, ortaq elmi irsin daha dərindən araşdırılmasına və yeni tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm töhfə verir.

Tədbirdə akademik Nizami Cəfərovun ”Azərbaycan türkləri Birinci Türkologiya Qurultayında” və professor İsmayıl Kazımovun ”I Türkologiya Qurultayının türkologiyanın sonrakı dövrünə təsiri” mövzularında, ”Ədəbiyyat” qəzetinin baş redaktoru Azər Turanın məruzələri dinlənilib.

Azər Turan”I Bakı Türkoloji Qurultayı günlərində Əli bəy Hüseynzadənin yazdığı notlar” mövzusunda çıxışında bildirib ki, həmin dövrün daha dərindən öyrənilməsi baxımından bu sənədlər xüsusi əhəmiyyət daşıyır.

Əli bəy Hüseynzadənin qeydləri qurultayın gedişini, müzakirə olunan məsələləri və iştirakçıların fəaliyyətini əks etdirən qiymətli tarixi mənbələrdir. Bu notlar vasitəsilə biz yalnız qurultayın rəsmi sənədlərini deyil, həm də onun canlı elmi mühitini və dövrün düşüncə tərzini daha aydın görə bilirik.

Məruzə göstərir ki, Əli bəy Hüseynzadə türk xalqlarının dil, mədəniyyət və mənəvi birliyi ideyasına böyük önəm verib. Onun qeydləri Türkoloji Qurultayın məqsəd və vəzifələrinin öyrənilməsində mühüm elmi material kimi çıxış edir.

# Avropalı alimlər Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər

**Azərbaycanda səfərdə olan İrlandiyanın Tirinti Universitetinin professoru tarix elmləri doktoru Patrik Uolş və Böyük Britaniya Kral Cəmiyyətinin üzvü, fəlsəfə üzrə fəlsəfə doktoru Nil Uotson AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Gəncədə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər.**




Nümayəndə heyətinə rəhbərlik edən AMEA-nın Azad Həmkarlar İttifaqının sədri siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Sənan Həsənov qonaqlara Gəncə şəhərinin tarixindən, Azərbaycan tarixində oynadığı roldan, Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxt şəhəri olmasından, Azərbaycan xaqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə şəhərin inkişafına verdiyi töhfələrin bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən söhbət açıb.

Görüş zamanı AMEA-nın Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarov Türk dünyasının böyük mütəfəkkiri, dahi Azərbaycan şairi Nizami Gəncəvinin mənsub olduğu Azərbaycan xalqının bəşəri dəyərlərini dünya miqyasında təmsil və təbliğ edən dünya şairi olmasını qonaqların diqqətə çatdırıb.

Ə.Muxtarov Azərbaycan nizamişünaslığının, dahi şairin məqbərəsinin tarixindən qonaqlara söhbət açaraq qed edib ki, bir əsrdən artıq tarixə malik olan Azərbaycan Nizamişünaslığının intibah dövrü Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin XX əsrin 60-cı illərinin sonlarından başlayaraq dahi mütəfəkkirin irsinin öyrənilməsi, tərcüməsi, yubileylərinin qeyd edilməsi və məqbərəsinin qorunması, bərpası istiqamətində həyata keçirdiyi dövlət tədbirlərinin tarixi əhəmiyyətini və bu siyasətin bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək uğurla davam etdirilməsini, cənab Prezidentimizin dahi mütəfəkkirin 870 və 880 illik yubileylərinin qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamları, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təsis edilməsini və Azərbaycan Prezidentinin himayəsi altında həyata keçirilən Qlobal Bakı Forumlarının tarixi missiyasını, 2021-ci ilin Azərbaycanda ”Nizami Gəncəvi İli” elan edilməsi kimi mühüm fəaliyyətlərin Prezident İlham Əliyevin adı ilə bağlı olmasını qonaqların diqqətinə çatdırıb.

Qonaqlar da öz növbələrində Avropada Nizami irsinin XVII əsrdən öyrənilməyə başlamasını vurğulamaqla yanaşı, Nizami Gəncəvinin tədqiqatçısı olan hər bir xarici ölkə aliminin həyatında bir dəfə də olsa, Gəncəni - Nizami Gəncəvi məqbərəsini ziyarət etməsinin zəruriliyini qeyd ediblər.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan Nizami Gəncəvi Muzeyini ziyarət edərək, böyük Azərbaycan şairinin Muzeydə sərgilənən əlyazmaları ilə tanış olublar.

Qonaqları müşayiət edən alimlərdən Gəncə Dövlət Universitetinin dosenti Səidə İsmayılzadə və AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri fəl.ü.f.d., dos. Zöhrə Əliyeva da müzakirələrdə iştirak ediblər.

# Naxçıvan Bölməsinin əməkdaşları "İlandağ kitabəsi" ilə yerində tanış olublar

**AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, bölmənin sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov, Saltaq kənd tam orta məktəbinin tarix müəllimi Mahir Əsgərov Culfa rayonu ərazisində yerləşən ”İlandağ kitabəsi” ilə yerində tanış olublar.**



Akademik İsmayıl Hacıyev bildirib ki, bir neçə gün bundan əvvəl 2800 il yaşı olan qayaüstü mixi yazının yeri dəqiqləşdirilib. Qayaüstü rəsm 30 il bundan əvvəl Naxçıvan elmi mühitinə məlum olsa da abidənin yeri dəqiq göstərilməmişdi. AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Vəli Baxşəliyev, Xaraba-Gilan arxeoloji ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli və tədqiqatçı Hüseyn Cəfərov İlandağ ərazisində qaya üzərində Urartu mixi yazılı mətnin yerini aşkar ediblər. Bu yazıda Urartu hökmdarı İşpuini və Menuanın Naxçıvana hərbi səfəri haqqında məlumat verilir və urartuların Naxçıvana hücumlarının uğursuz olduğu qeyd olunur.

Abidədə bəzi aşınmaların yarandığına diqqət çəkən akademik aiddiyyəti qurumları bununla bağlı tədbirlər görməyə çağırıb. Qeyd edib ki, elm adamları, mədəniyyət nümayəndələri bu tarixi tapıntının qayğısına qalmalıdır. Bu, bizim tariximizdir, tarixi yaşatmaq isə hər birimizin borcudur.

# Gəncə Bölməsində "Səməd Vurğun və Azərbaycan ədəbiyyatı" mövzusunda dəyirmi masa

**AMEA-nın Gəncə Bölməsində ”Səməd Vurğun və Azərbaycan ədəbiyyatı” mövzusunda dəyirmi masa keçirilib.**



Tədbir tanınmış ictimai xadim, Xalq şairi, dramaturq, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Yusif oğlu Vəkilovun 120 illik yubileyinə həsr olunub.

Dəyirmi masanı giriş sözü ilə açan AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev 20-ci əsr Azərbaycan ictimai həyatının və ədəbiyyatının görkəmli nümayəndəsi olan Səməd Vurğunun yaradıcılığının zənginliyini və onun əsərlərinin keçmiş SSRİ məkanında, eləcə də dünyanın bir sıra ölkələrində tanındığını və müxtəlif dillərə tərcümə olunduğunu bildirib.

Akademik Fuad Əliyev vurğulayıb ki, cənab Prezident İlham Əliyevin ”Xalq şairi Səməd Vurğunun anadan olmasının 120 illik yubileyinin qeyd edilməsi haqqında” 23 fevral 2026-cı il tarixli Sərəncamı milli dəyərlərimizin, eləcə də tanınmış şəxslərimizin irsinin qorunması və tanıdılması kimi ali məqsədlərə xidmət edir və bugünkü tədbir də həmin dövlət sənədinin işığında və Bölmənin tədbirlər planına müvafiq olaraq keçirilir.

Sonra tədbirin məruzələri dinlənilib.

AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin Dünya nizamişünaslığının tədqiqi şöbəsinin elmi işçisi Aynur Mirişli ”Səməd Vurğunun həyatı və idealları”, AMEA-nın Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, dosent Əlimuxtar Muxtarov ”Azərbaycan nizamişünaslığının tarixində Səməd Vurğunun yeri”, AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin Nizami irsində sənətşünaslıq şöbəsinin müdiri, fil.ü.f.d. Təranə Verdiyeva ”Səməd Vurğun və Gəncə”, AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin Nizaminin elmi fəlsəfi görüşləri şöbəsinin müdiri, fil.ü.f.d. Xəyalə Hüseynova ”Səməd Vurğunun epik yaradıcılığı”, AMEA-nın Gəncə Bölməsinin Humanitar Tədqiqatlar İnstitutunun Ədəbiyyat şöbəsinin elmi işçisi Sənubər Abdinova ”Səməd Vurğun və ”Vaqif” dramı”, AMEA-nın Gəncə Bölməsinin Humanitar Tədqiqatlar İnstitutunun Ədəbiyyat şöbəsinin böyük laborantı Güləndam İsmayılova ”Səməd Vurğun və ”Azərbaycan” şeiri” mövzularında çıxış ediblər.

Çıxışlar ətrafında müzakirələr aparılıb.

# Ümummilli Lider Heydər Əliyevin dövlətçilik siyasətində memarlıq, şəhərsalma və milli dəyərlər



**İyunun 9-da AMEA Azad Həmkarlar İttifaqı, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, AMEA Memarlıq və İncəsənət İnstitutu, eləcə də AMEA Folklor İnstitutunun birgə təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətində memarlıq, şəhərsalma və milli dəyərlər" mövzusunda tədbir keçirilib.**

"Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 dekabr tarixli Sərəncamına əsasən təşkil edilən tədbirdə əvvəlcə AMEA əməkdaşlarının rəsm əsərləri sərgilənib.

Sonra Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri açan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Elmi Mədəni Mərkəzinin direktoru, Elm şöbəsinin müdiri, tarix elmləri doktoru Vəfa Quliyeva tarixi memarlıq irsimizin həm elmi tədqiqatlar, həm də rəsm əsərləri vasitəsilə təbliğ edilməsinin böyük əhəmiyyətinə diqqət çəkib.

Tədbirdə açılış nitqi ilə çıxış edən AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin həm mədəni, həm də siyasi baxımdan tarixi əhəmiyyət daşıdığını deyib: "Dövlət başçısının bu sərəncamı Azərbaycan cəmiyyəti və dünya üçün çox mühüm mesajlar ehtiva edir. Şəhərsalma və memarlıq sadəcə binaların inşası deyil, bütövlükdə cəmiyyətin davamlı inkişafı, sülh və tərəqqi ilə birbaşa bağlı olan geniş bir mədəniyyətdir. Şəhərlərin böyüməsi və müasirləşməsi həyatın özünün inkişaf dinamikasını əks etdirir".

Alim vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik siyasətində memarlıq və şəhərsalma məsələlərini müzakirə edərkən, ilk növbədə Ulu Öndərin bu sahəyə olan fitri sevgisini və peşəkar baxışını qeyd etməliyik: "Bildiyiniz kimi, Heydər Əliyev gənclik illərində memarlıq təhsili almağa başlayıb, lakin İkinci Dünya müharibəsi onun bu sahədəki təhsilini yarımçıq qoyub. Buna baxmayaraq, memarlıq sənətinə olan sonsuz məhəbbətini o, bütün həyatı boyu qəlbində yaşadıb və fəaliyyətində rəhbər tutub. Müsair Azərbaycanın memarı olan Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi birinci dövr ölkəmizdə memarlığın intibah dövrü kimi tarixə düşüb. Məhz həmin illərdə ölkəmizin şəhərsalma və memarlıq sahəsində qazandığı böyük uğurların, əldə olunan tarixi nailiyyətlərin fundamental təməl daşı qoyulub. Bu tarixi irs, bu gün də Azərbaycan memarlığının güc mənbəyidir."

Sonra çıxış edən AMEA Azad Həmkarlar İttifaqının sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Sənan Həsənov sərginin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür edərək, onların yaradıcılığın təməlində Vətən sevgisinin dayandığını deyib. Bildirib ki, bu möhtəşəm rəsm əsərlərini və layihələri ərsəyə gətirmək üçün ilk növbədə müəlliflərin qəlbində dövlətimizə, tariximizə və milli dəyərlərimizə qarşı böyük bir sevgi olmalıdır. Bu sevgi özlüyündə həm də yüksək ləyaqət rəmzidir. Hər bir əməkdaşımızın bu müştərək işdə nümayiş etdirdiyi fədakarlıq bizim üçün çox dəyərlidir. Tədbirin ortaq təşkilatçısı olan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə və burada əməyi keçən hər bir həmkarımıza bu gözəl təşəbbüsə verdikləri dəstəyə görə minnətdarlığımı bildirirəm. Bu əməkdaşlıq gələcək birgə layihələrimiz üçün həm mükəmməl bir platforma, həm də mühüm bir təcrübədir.

Sənan Həsənov AMEA-nın Azad Həmkarlar İttifaqının alim və mütəxəssislərin hüquqlarını qorumaqla yanaşı, həm də onların yaradıcı və elmi potensialını cəmiyyətə təqdim edən böyük bir təsisat olduğunu deyib. Təşkilatın "Şəhərsalma və Memarlıq İli" çərçivəsində Akademiyada il boyu fəliyyətin önəmli bir parçası olaraq, bu cür tədbirləri davamlı təşkil etdiyini bildirib.

Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik siyasətində memarlıq və şəhərsalma ideyaları ən yüksək dəyərlərdən biridir. Biz bu irsi nə qədər dərindən tədqiq etsək də, hər dəfə yeni-yeni elmi məqamlar kəşf edirik. Bu baxımdan, Akademiyanın cəmiyyətdəki rolu və yeri tamamilə aydındır. Bu gün AMEA-nın ziyalıları dövlətimizin çağırışlarına ən yüksək səviyyədə cavab verir, aktual tədqiqatları ilə ölkəmizin inkişafına mühüm töhfələr bəxş edirlər.

Tədbirdə AMEA Folklor İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova, İnstitutun "Cənubi Azərbaycan Folkloru" şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Mətanət Abbasova, Həmkarlar Təşkilatının sədri Aynur İbrahimova, AMEA Memarlıq və İncəsənət İnstitutunun "Memarlıq tarixi və nəzəriyyəsi" şöbəsinin aparıcı elmi işçisi, memarlıq üzrə fəlsəfə doktoru, dosent Sevinc Tangudur, "Memarlıq tarixi və nəzəriyyəsi" şöbəsinin aparıcı elmi işçisi, memarlıq üzrə fəlsəfə doktoru, dosent Rizvan Babaşov və rəsm əsərlərinin müəllifləri çıxış edərək, memarlıq elementlərinin, şəhərsalma mədəniyyətinin və xalq folklorunun milli kimliyin formalaşmasındakı mühüm rolunu vurğulamaqla, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin bu sahələrin inkişafına verdiyi böyük təkan və tarixi töhfələrə diqqət çəkiblər.

Tədbir çərçivəsində sərgidə fırça və rənglərin dili ilə tarix və müasirliyin vəhdəti Xəzər Zeynalovun "İlk çərşənbə", Rizvan Babaşovun (Qarabağlı) "Əcəmi Naxçıvani", Aysel Talıbovanın "Tariximizin keşiyində", "Memarlıq. Təzadlar", "Şuşa", Rüsxarə Əlizadənin "Elmin inkişafı", Oksana Məmmədovanın "İşğaldan azad edilmiş abidələrimiz", "Narın sirri", "Yaddaşın naxışları-tarixin izləri", Leyla Məmmədkərimovanın "Qarabağın səsi" Səyyad Bayramovun "İçərişəhər", Vəfa Əliyevanın "İnkişaf" və digər rəsm əsərləri ilə nümayiş olunub. Tədbir iştirakçılar arasında maraqlı diskussiya ilə davam edib, sonda xatirə şəkilləri çəkilib.

# Sübutsuz iddia fakt kimi təqdim oluna bilməz

**Müasir dövrdə yanlış məlumatların yayılması və ictimai fikrin yönləndirilməsi qlobal təhlükəsizlik üçün ciddi təhdid yaradır. Bu səbəbdən media qurumları, xüsusilə beynəlxalq nüfuza və geniş oxucu kütləsinə malik informasiya vasitələri sülh və təhlükəsizliyə təhdid yaradan həssas məsələlərin işıqlandırılmasında peşəkar bacarıqlarını ən yüksək səviyyədə nümayiş etdirməli, mövcud informasiyanı dəqiq, obyektiv və etibarlı şəkildə təqdim etməlidirlər. Lakin təəssüf ki, özünü peşəkar və obyektiv media qurumu kimi təqdim edən CNN və bəzi digər oxşar media orqanlarının müəyyən dairələrin təsiri altında anti-Azərbaycan xarakterli informasiya kampaniyalarına xidmət etməsinin şahidi oluruq.**



Qeyd etmək lazımdır ki, hətta ABŞ Prezidenti Donald Tramp CNN-i dəfələrlə "saxta xəbərlər" və "xalqın düşməni" kimi sərt ifadələrlə tənqid edib. Bunun növbəti nümunəsi kimi "CNN World" xəbər kanalının internet səhifəsində dərc olunmuş məqalədə həqiqəti əks etdirməyən, əsassız və uydurma iddialara yer verilməsi göstərilə bilər.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində AMEA Rəyasət Heyətinin elmi katibi iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov deyib. O bildirib ki, bu kimi əsassız və heç bir sübuta söykənməyən iddialar növbəti dezinformasiya cəhdi və ictimai rəyi çaşdırmağa yönəlmiş kobud manipulyasiya nümunəsidir: "Məqalənin məzmunu bütövlükdə "dörd anonim mənbə"yə istinad üzərində qurulub. Bununla yanaşı, sözügedən yazıda irəli sürülən iddiaları təsdiqləyən heç bir konkret sübut, nə rəsmi sənəd, nə peyk görüntüsü, nə də digər maddi dəlillər təqdim olunmur. Belə olan halda söhbət təsdiqlənmiş faktlardan deyil, yalnız əsassız iddialardan gedir. Bu isə jurnalistikanın əsas prinsipləri olan obyektivlik, dəqiqlik və mənbələrin etibarlılığı ilə ciddi ziddiyyət təşkil edir. Xarici İşlər Nazirliyi bu yalan məlumatı qəti şəkildə təkzib edib. Maraqlıdır ki, rəsmi dövlət qurumunun açıq və məsuliyyətli bəyanatı nəzərə alınmadan, kimliyi məlum olmayan şəxslərin iddiaları daha etibarlı mənbə kimi təqdim edilir. Halbuki əgər həqiqətən də belə bir əməliyyat baş vermiş olsaydı (hansı ki, bu iddianın tamamilə əsassız olduğu açıqdır), onun sübutlarını təqdim etmək məsuliyyəti məhz iddianı irəli sürən tərəfin üzərinə düşür.

Beynəlxalq münasibətlərdə hər hansı ittihamın irəli sürülməsi mütləq şəkildə qəti və yoxlanıla bilən sübutlarla əsaslandırılmalıdır. "Anonim mənbələr bildirir" yanaşması ilə istənilən dövlətə qarşı iddiaların səsləndirilməsi mümkündür. Lakin bu cür iddialar sübuta əsaslanmadığı təqdirdə fakt kimi deyil, daha çox siyasi motivli və qərəzli informasiya kimi qiymətləndirilməlidir".

Coşqun Məmmədov qeyd edib ki, bu səbəbdən təqdim olunan məlumatların etibarlı dəlillərlə təsdiqlənmədiyi hallarda onların obyektiv həqiqət kimi qəbul edilməsi düzgün deyil: "Şübhəsiz ki, bu cür saxta məlumatlar ölkəmizin milli maraqlarına və beynəlxalq aləmdə formalaşmış müsbət imicinə xələl gətirməyə, həmçinin beynəlxalq ictimai rəydə çaşqınlıq yaratmaqla regionda onsuz da həssas olan hərbi-siyasi vəziyyətin daha da gərginləşdirilməsinə xidmət edən dezinformasiya cəhdlərindən başqa bir şey deyil. Dəfələrlə ən ali səviyyədə bəyan edildiyi kimi, Azərbaycan ərazisində heç bir xarici dövlətin silahlı qüvvələri və ya hərbi bazaları mövcud deyildir. Eyni zamanda, Azərbaycan Respublikasının ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi əməliyyatlar, kəşfiyyat və ya digər bu kimi qeyri-dost məqsədlər üçün istifadəsi mümkün deyil. Ölkəmiz bu cür fəaliyyətlərə nə indiyə qədər icazə vermiş, nə də gələcəkdə bunu nəzərdə tutur. Bu prinsip Azərbaycanın xarici siyasət strategiyasının əsas və dəyişməz istiqamətlərindən birini təşkil edir. Əksinə, Azərbaycan regionda sülhə, sabitliyə və mehriban qonşuluq münasibətlərinə sadiqdir. Ölkə beynəlxalq hüququn norma və prinsiplərinə riayət edir, dövlətlərin suverenliyinə hörmətlə yanaşır və bu strateji kursu qətiyyətlə davam etdirir.

Ölkəmiz həm regionda, həm də dünyada əməkdaşlığın, dialoqun və təhlükəsizliyin möhkəmləndirilməsində, qarşılıqlı siyasi və iqtisadi münasibətlərin inkişafında, eləcə də qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasında maraqlıdır. Belə ki, Azərbaycan İran-ABŞ/İsrail münaqişəsinin ən gərgin mərhələsində belə müxtəlif ölkələrin vətəndaşlarının sərhəd-keçid məntəqəsi vasitəsilə tam təhlükəsiz şəkildə təxliyəsini təşkil etməklə beynəlxalq humanitar prinsiplərə sadiqliyini nümayiş etdirib. Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə ifadə etdiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" fikri artıq reallığa çevrilib. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən və beynəlxalq nüfuzu artan bir ölkə kimi mövqeyini daha da möhkəmləndirir. Mövcud inkişaf və tərəqqini qəbul edə bilməyən anti-Azərbaycan qüvvələrin qərəzli və dezinformasiya xarakterli fəaliyyətlərini müşahidə etdikcə, ölkəmizin düzgün və məqsədyönlü yolda irəlilədiyi bir daha təsdiqlənir".

# Qərbi Azərbaycana qayıdış məsələlərinə tarixi yaddaş prizmasından hüquqi baxış

**3-4 iyun 2026-cı il tarixində Bakı Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış: milli ideyanın yeni mərhələsi kimi" mövzusunda I beynəlxalq elmi konfrans keçirilib.**

Konfransda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Fəlsəfi-hüquqi təlimlər və suverenlik şöbəsinin müdiri hüquq üzrə elmlər doktoru, professor Habil Qurbanov da iştirak edib.

Professor Habil Qurbanov tədbirdə "Qərbi Azərbaycana qayıdış məsələlərinə tarixi yaddaş prizmasından hüquqi baxış" mövzusunda məruzə ilə çıxış edərək mövzunun tarixi, hüquqi və humanitar aspektlərini geniş şəkildə təhlil edib.

Məruzədə Qərbi azərbaycanlıların doğma torpaqlarına qayıdış hüququ tarixi faktlar və sənədlər əsasında araşdırılmış, tarixi yaddaşın qorunmasının və gələcək nəsillərə ötürülməsinin əhəmiyyəti vurğulanmışdır. Eyni zamanda qayıdış prosesinin beynəlxalq hüququn norma və prinsipləri, fundamental insan hüquqları və beynəlxalq konvensiyalar çərçivəsində hüquqi əsasları diqqətə çatdırılmışdır.



Professor Habil Qurbanov çıxışında didərgin salınmış soydaşlarımızın mülkiyyət, mədəni irs və vətənə qayıdış hüquqlarının beynəlxalq səviyyədə tanınmasının və müdafiəsinin vacibliyini qeyd edib, bu istiqamətdə elmi və hüquqi fəaliyyətin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Məruzə iştirakçılar tərəfindən maraqla qarşılanıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# Əmir Əlişir Nəvainin irfani dünyası

**Bakıda tanınmış özbək alimi, filologiya elmləri doktoru, professor Nurbay Cabbarovun "Əmir Əlişir Nəvainin irfani dünyası" adlı monoqrafiyası Azərbaycan dilində nəşr olunub.**




Kitab Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının qərarı ilə "Elm və təhsil" nəşriyyatında çapdan çıxıb. Fundamental tədqiqat əsərinin elmi məsləhətçisi akademik İsa Həbibbəyli, rəyçisi professor Yaşar Qasımbəyli, redaktoru isə dosent Siracəddin Hacıdır.

Özbək dilindən Azərbaycan dilinə tərcümənin və "Ön söz"ün müəllifləri professor Almaz Ülvi Binnətova və Təbriz universitetinin professoru Hüseyn Xoşbatindir.

Monoqrafiyada böyük şair və mütəfəkkir Əmir Əlişir Nəvainin şəxsiyyəti, dövlətçilik xüsusiyyətləri, zəngin irfani dünyası və ədəbi-estetik baxışları yeni tədqiqatlar əsasında təhlil edilir. Kitabda Nəvainin türk xalqlarını vahid ədəbi dil ətrafında birləşdirmək missiyası, onun şah əsəri olan "Xəmsə"dəki bədii anlayışlar, həmçinin "Ərbəin" və "Siraçülmüslimin" kimi dini-maarifçi əsərlərinin mahiyyəti geniş işıqlandırılır. Eyni zamanda, əsərdə XIX əsrdən müasir dövrə qədər özbək ədəbiyyatında mövcud olan "Nəvaiyə varislik" ənənələri sistemli şəkildə araşdırılır.

Monoqrafiyanın müəllifi Nurbay Cabbarov Özbəkistan klassik ədəbiyyatşünaslığı üzrə elmi məktəbin yaradıcısı, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin elmi işlər və innovasiyalar üzrə prorektoru, həmçinin Özbəkistan Yazıçılar Birliyinin Ədəbi Tənqid Şurasının sədridir. O, Özbəkistanın "Şöhrət" medalı və "Dostluq" ordeni ilə təltif edilib. Alimin fundamental tədqiqatları ABŞ, Türkiyə, Azərbaycan, Rusiya və Çin kimi ölkələrin nüfuzlu elmi nəşrlərində ("Scopus" və s.) işıq üzü görüb.

Professor N.Cabbarov Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişafındakı xidmətlərinə görə Azərbaycanın "Nizami Gəncəvi" xatirə nişanı (2021) və AMEA-nın "Ədəbiyyatşünaslıq elminə dəstək" diplomu (2023) ilə təltif olunub.

Nəşr Azərbaycan ilə Özbəkistan arasındakı tarixi-mədəni dostluğun, elmi inteqrasiyanın gücləndirilməsinə və milli nəvaişünaslıq sahəsindəki boşluqların doldurulmasına mühüm töhfədir. 324 səhifədən ibarət olan bu qiymətli mənbə ədəbiyyatşünaslar, tədqiqatçılar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# Qərbi Azərbaycan və Qarabağ dövri mətbuatda



**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Qərbi Azərbaycan və Qarabağ dövri mətbuatda" mövzusunda tədbir keçirilib.**

Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi şöbəsinin təşkilatçılığı ilə keçirilmiş tədbiri giriş nitqi ilə müəssisənin direktoru akademik Teymur Kərimli açıb, tədbirin bu cür mühüm tarixi və elmi əhəmiyyətli mövzuya həsr olunmasını yüksək qiymətləndirib. Qərbi Azərbaycan və Qarabağın yerli mətbuat tarixinə nəzər salan alim bu irsin öyrənilməsinin milli dövlətçilik maraqlarımız baxımından aktuallığını qeyd edib. Bildirib ki, vaxtilə Qərbi Azərbaycan və Qarabağ ərazisində nəşr olunmuş regional dövri mətbuat orqanları bizim milli və mədəni yaddaşımızın ən etibarlı daşıyıcılarıdır. Akademik, həmçinin bu zəngin irsin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində rəhbəri olduğu müəssisədə saxlanılan ilkin mənbələrin və arxiv materiallarının müstəsna rol oynadığını diqqətə çatdırıb.

Daha sonra çıxış üçün söz məruzəçilərə verilib.

Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi şöbəsinin müdiri fil.e.d., professor Raqub Kərimov, həmin şöbənin aparıcı elmi işçisi fil.ü.f.d. Tünzalə Seyfullayeva, elmi işçiləri - Sevinc Muxtarova və Ramidə Abbasova, baş mütəxəssisi Zərifə Haqverdiyeva və mütəxəssisi Vəfa Şərifova mövzuya uyğun məruzələrində Mirzə Fətəli Axundov və Qarabağ ədəbi mühitindən, mətbuatımızın inkişafında Qarabağ ziyalılarının rolundan, Qərbi Azərbaycanın 1918-1920-ci illərdəki vəziyyətinin "Azərbaycan" qəzetində təsvirindən, Bala Əfəndiyevin həyat yolu və onun Qərbi Azərbaycanda latın qrafikalı əlifba hərəkatına verdiyi töhfələrdən, görkəmli şair, pedaqoq Nuşirəvan Kərimovun mətbuat fəaliyyətindən, o cümlədən "Molla Nəsrəddin" jurnalında Qarabağ və Cənubi Qafqazda birgəyaşayış ideyalarından söz açıblar.

Tədbir çərçivəsində institut kitabxanasının mövzuya uyğun hazırladığı, milli mətbuatımızı və Qarabağ ədəbi mühitini özündə əks etdirən kitab sərgisi nümayiş olunub.

# Folklor resurslarının kibertəhlükəsizlik məqsədilə analizi üzrə yeni yanaşma

**Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutu, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Azərbaycan Texniki Universiteti və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən "Kibertəhlükəsizlik və rəqəmsal kriminalistikanın aktual problemləri" respublika elmi-praktik konfransında AMEA Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hikmət Quliyev məruzə ilə çıxış edib.**



Alimin "Kibertəhlükəsizliyin təmin olunması məqsədi ilə internet mühitində folklor resursları əsasında fərdlərin identifikasiyası imkanlarının araşdırılması" mövzusunda təqdim etdiyi məruzə folklorşünaslıq, kibertəhlükəsizlik, süni intellekt və rəqəmsal humanitar elmlərin kəsişməsində formalaşan innovativ yanaşmanı özündə əks etdirib.

Məruzədə rəqəmsal transformasiyalar nəticəsində formalaşan yeni kommunikasiya mühitinin sosial münasibətlərə, kollektiv davranış modellərinə və qrup identikliyinin formalaşmasına təsiri təhlil olunub.

Çıxışda sosial-antropoloji folklorşünaslıq yanaşmaları əsasında kibersosial mühitlərin öyrənilməsinə imkan verən yeni nəzəri-metodoloji yanaşma təqdim olunub. Bu yanaşma çərçivəsində rəqəmsal kommunikasiya proseslərində meydana çıxan kollektiv yaradıcılıq formalarının, vernakulyar məzmunun və sosial özünüifadə mexanizmlərinin kibertəhlükəsizlik kontekstində analitik imkanları təhlil edilib.

Alim bildirib ki, sosial-antropoloji folklorşünaslığın nəzəri imkanlarının böyük verilənlərin analizi, təbii dilin emalı, süni intellekt və rəqəmsal analitika texnologiyaları ilə inteqrasiyası gələcəkdə yeni tədqiqat istiqamətlərinin formalaşmasına şərait yarada bilər. Bu yanaşma rəqəmsal mühitdə fəaliyyət göstərən sosial qrupların davranış modellərinin, kommunikasiya xüsusiyyətlərinin və identiklik mexanizmlərinin öyrənilməsi üçün əlavə metodoloji imkanlar açır.

